Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

68-ci cild

23 aprel 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 166

*Milli Məclisin iclas salonu.*
*23 aprel 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 95 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. “Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

## Aşağıdakı məsələlər müzakirə edilmişdir:

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamran Bayramov, Anar İsgəndərov, Siyavuş Novruzov, Cəbi Quliyev, Razi Nurullayev, Elşad Mirbəşir oğlu, Qüdrət Həsənquliyev, Elman Nəsirov, Zahid Oruc, Naqif Həmzəyev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Elman Nəsirov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Elman Nəsirov, Sahib Alıyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |

| | |
|---|---|
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**3. “Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**4. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməd i | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**5. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Rəşad Mahmudov, Əli Hüseynli, İlham Məmmədov, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**6. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**7. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Tahir Mirkişili, Tahir Rzayev, Sadiq Qurbanov, Siyavuş Novruzov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7-ci və 8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9-cu və 10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**8. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Razi Nurullayev, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**9. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Fəzail Ağamalı, Tahir Mirkişili, Tahir Rzayev, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazə-**

**lər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**12. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Aydın Mirzəzadə, Etibar Əliyev, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar İskəndərov, Siyavuş Novruzov, Aydın Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Jalə Əliyeva, Tahir Mirkişili, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**16. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*23 aprel 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Salam, xoş gördük hamınızı, hörmətli həmkarlar, hörmətli media nümayəndələri! Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

Yetərsay var. Gündəlik hamıya paylanıb, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik də qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var, danışmaq istəyən varsa, yazılsın. 10 nəfər danışa bilər. Buyurun. Sonuncu Naqif Həmzəyevin çıxışı olacaq. Xahiş edirəm, qalan siyahını götürün.

İndi isə, Kamran Bayramov. Buyurun.

**K.Bayramov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar! Məlum olduğu kimi, Azərbaycanın və Ermənistanın delimitasiya komissiyalarının aprelin 19-da keçirilmiş növbəti görüşündə sərhədlərin delimitasiyası prosesinin ilkin mərhələsində Qazaxın işğal altında olmuş qeyri-anklav kəndlərinin ölkəmizin nəzarətinə qeyd-şərtsiz qaytarılması barədə razılığa gəlinib. Azərbaycan və Ermənistan ortaya çıxan məsələləri müstəqil şəkildə həll etməyə qadir olduqlarını bir daha sübut etdilər. Ermənistanın Tavuş vilayətində revanşistlər nə qədər həyasızlıq etsələr də, Azərbaycan istəyinə nail oldu. Heç bir şübhə yoxdur ki, bu hadisə sərhədlərin real delimitasiyası prosesinin bünövrəsini qoydu və onun ilk addımı məhz Qazax rayonunda atıldı. Çünki Azərbaycan delimitasiyanın konkret olaraq strateji əhəmiyyət kəsb edən bu ərazidən başlanılmasını israrla tələb edirdi və tələbin yerinə yetirilməsinə nail oldu.

Əldə olunmuş razılıq Qarabağ üzərində suverenliyin tam bərpa edilməsi və Rusiya sülhməramlı kontingentinin ölkə ərazisindən çıxarılması da daxil olmaqla, mühüm qələbələr silsiləsində yeni bir mərhələ oldu. Biz bir daha şahidi oluruq ki, cənab Prezidentin irəli sürdüyü tələblər təmin edilir, qurduğu planlar isə dövlətimizin milli maraqlarına tam uyğun həyata keçirilir. Bu arada Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları və Qərb dairələri delimitasiya prosesinə müxtəlif yollarla təsir göstərməyə,

Ermənistanın tərəfini tutmağa çalışsalar da, cənab Prezident onların müdaxiləsinin qarşısını qətiyyətlə almağı bacardı. Hətta onlar tərəfindən razılaşmanın alqışlanmasına və dəstəklənməsinə nail oldu. Artıq aydın görünür ki, Qərb adlanan "sülhməramlılar" və "vasitəçilər" Azərbaycan və Ermənistan dialoquna və danışıqlarına nə qədər az müdaxilə etsələr, Cənubi Qafqazda sülh və sabitlik bir o qədər də tez gələcək.

Eyni zamanda, bu hadisə daha bir məsələyə yağlı nöqtə qoydu. Azərbaycanın guya Ermənistana hücuma və müharibəyə hazırlaşması ilə bağlı Fransanın və kollektiv Qərbin apardığı təbliğatı darmadağın etdi. Artıq hamıya bəlli oldu ki, bu ittihamlar ölkəmizə qarşı yönəlmiş və reallıqla heç bir əlaqəsi olmayan çirkin oyunun və qarayaxma kampaniyasının tərkib hissəsi idi. Son bir neçə gündə baş verən və hər iki ölkə üçün müsbət xarakter daşıyan hadisələr cənab Prezidentin çoxdan söylədiyi fikirləri, sadəcə, təsdiq etdi. Cənubi Qafqaz regionunda davamlı sülhün və etibarlı təhlükəsizliyin təmin edilməsi Ermənistanın Azərbaycanla vasitəçisiz, havadarsız, birbaşa dialoqunun və təmaslarının davam etdirilməsindən keçir. Zaman da göstərdi ki, bu, alternativi olmayan yoldur. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. 2023-cü il dövlət səviyyəsində "Heydər Əliyev İli" idi və doğrudan da, Azərbaycan və Azərbaycanı sevən insanların hər biri Heydər Əliyevin 100 illik yubileyini böyük uğurla keçirdi. Dünən Moskvada Azərbaycanın dövlət başçısı ilə Rusiya Federasiyasının dövlət başçısının Baykal–Amur magistralının 50 illik yubileyi ilə bağlı Heydər Əliyev haqqında

ürək dolusu danışmaları Azərbaycan xalqının böyük oğlunun təkcə Azərbaycana sığan siyasi xadim deyil, dünya əhəmiyyətli bir siyasi xadim olduğunu bir daha göstərdi. Bu, doğrudan da, bu günlər üçün böyük hadisədir. Yəni vaxtı ilə yeganə türk-müsəlman Heydər Əliyev olub ki, SSRİ deyilən nəhəng imperiyanı idarə edənlərdən birincisi və sonuncusu olub. Təbii, bu onu göstərir ki, illər keçəcək, amma Heydər Əliyevlə bağlı bu gün yazdıqlarımız, sabah yazacaqlarımız Azərbaycanın uğurunu, böyüklüyünü göstərir.

İkinci bir məsələni də sizinlə bölüşmək istəyirəm. Yəqin hamınıza məlumdur ki, sabah – aprelin 24-də erməni ideoloqları başda olmaqla kimlərsə yenə göz yaşı tökəcək, bir hissəsi isə guya "1915-ci il erməni soyqırımı" ilə bağlı nələrsə yazacaq. Amma bir tarixi həqiqəti də sizinlə bölüşək. Ermənistanın baş naziri də bu məsələyə münasibət bildirdi. Təbii ki, öz marağı baxımından, tarixi Ermənistan baxımından deyil. Əgər tarixi Ermənistan tədqiqat mövzusu olsa, onda 1918-ci ilə qədər belə bir Ermənistan yoxdur. Erməni yaşaya bilər, amma erməni tarixində erməni dövlətinin izi yoxdur. Kilsə ilə bağlı nə qədər istəsə, danışa bilər. Ancaq bir də faktiki Ermənistan. Faktiki Ermənistan 1918-ci ildə bizim torpaqlarımızda yaradılan Ermənistandır, ilk əvvəl 9 min, ən nəhayət, bu gün də 29 min kvadrat kilometr ərazi ilə. Bu onu göstərir ki, 1915-ci il 24 aprel əgər bir tarix olsaydı, onda parlament kürsülərində deyil, siyasi rəhbərlər tərəfindən deyil, arxiv sənədləri ilə bu məsələyə münasibət bildirilərdi. Ancaq ermənilər onu da dərk eləməlidirlər ki, tarix boyu Qərb həmişə onları şirnikləndirib, söz verib ortaya atıb, son nəticədə də erməni ortalıqda qalıb. Amma ən axırda da yenə ona kömək əlini, xeyirxahlıq əlini

uzadan türk olub, müsəlman olub. Yəqin ki, ermənilər də bu hadisələrdən nəticə çıxarıb, 24 aprellə bağlı göz yaşı tökməkdənsə, bəli, Azərbaycanla səmimi dostluq münasibətləri ilə bağlı sülh müqaviləsi imzalayacaq, haqq və ədalət öz yerini tam mənada tapacaq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycanın uğurları artdıqca Azərbaycanı istəməyən qüvvələr Azərbaycana qarşı öz məkrli niyyətlərini həyata keçirməyə başlayıblar. Bunlar beynəlxalq təşkilatlardır, ayrı-ayrı dövlətlərdir, Azərbaycanda o dövlətlərə xidmət göstərən insanlardır, partiya rəhbərləridir və sair.

Azərbaycan hər addımını beynəlxalq hüququn əsaslarına uyğun şəkildə atır və tələb etdiyi, ortaya qoyduğu məsələlər Azərbaycanın haqq işidir – istər BMT-nin qətnamələri ilə, istərsə də vaxtı ilə Azərbaycanın BMT-yə daxil olduğu sərhədlərlə əlaqədar olaraq və sair.

Əfsuslar olsun ki, dünya ölkələri özlərini demokrat adlandırsa da, o addımların heç birində Azərbaycanın haqq işi ilə bağlı nəinki dəstək göstərilmir, əksinə, onun əleyhinə, ikitərəfli sülh müqavilələrinin bağlanılmasına qarşı və digər məsələlərdə öz məkrli niyyətlərini ortaya qoyurlar. Xocalı soyqırımını törədənlərə, Azərbaycan xalqının əleyhinə, insanlıq əleyhinə cinayət törədənlərə, Gəncəni, Bərdəni, Tərtəri bombalayanlara, dinc sakinlərə atəş açanlara qarşı hələ indiyə qədər bir sanksiya tətbiq olunmayıb. Avropa Şurasında fəxrlə çıxış edən Ermənistanın keçmiş prezidenti dedi ki, Xocalı soyqırımını törətməyi ilə fəxr edir. Yəni özü etiraf edir. Yaxud

Ermənistanın yazıçısı Balayanı qeyd edim, yeniyetmə uşaqları necə yandırmağını, onları borulara doldurub, qaynaq eləyib odlamağını öz kitabında yazıb. O, öz günahlarını etiraf edibdir. Amma əfsuslar olsun ki, bu etiraf eləyənlərə qarşı hər hansı bir addım atılmır.

Azərbaycanda bir tiktoker var, Əli Kərimli. Deməli, bir kompüteridir, bir özüdür. Qoyur qabağına, danışır. Təbii ki, kompüter danışa bilmir, ona cavab verə bilmir və danışır. Əgər cəsarəti çatırsa, hər hansı bir fikir söyləmək istəyirsə, dəvət eləyirik, gəlsin istənilən internet saytlarında, hər birində də çıxış eləyək və dünyanın get-gəlini ona başa salaq ki, dünya nədən ibarətdir? Dünya tək başqa dövlətlərə donos verməkdən ibarət deyil, dünya öz vətənini sevməkdir, xalqını sevməkdir. Görülən işləri qiymətləndirməkdir. Bu gün görülən işlərin üzərinə kölgə salmağa çalışmaq, insanlara düzgün olmayan məlumatlar vermək, heç də yerində deyil. Nə vaxt istəyir, bu məsələlərlə bağlı biz hazırıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Cəbi Quliyev. Buyurun.

**C.Quliyev**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Mən də hər birinizi salamlayıram. Hörmətli Sahibə xanım, bu günlərdə sosial şəbəkələrdə qarşıma çıxan vacib bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Əslində, bu, bir ananın fəryadıdır desəm, daha doğru olar. 4 yaşlı sağlamlıq imkanı məhdud Atillanın timsalında bütün bu kateqoriyadan olan vətəndaşlarımızın xahiş və arzusudur.

Bu gün ölkəmizdə inklüziv təhsilin həyata keçirilməsi, fiziki məhdudiyyətli uşaq və gənclərimizin cəmiyyətə qazandırılması onların müxtəlif federasiyalar vasitəsi ilə idmana cəlb edilməsi, asudə vaxtlarının səmərəli təşkili istiqamətində mühüm işlər görülür. Dövlət başçısının

Sərəncamı ilə "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" icra olunub. Bütün bunlar bizim həmin kateqoriyadan olan uşaq və gənclərimizin təhsil imkanlarının yaxşılaşdırılmasına, onların mövcud patensialından, bilik və bacarıqlarından düzgün istifadə edilməsinə, yaradıcılıq imkanlarının artırılmasına xidmət edir.

Mənim danışacağım məsələ sağlamlıq imkanları məhdud uşaq və gənclərimiz üçün daha sıx qarşılaşdığımız məsələlərdən biridir. Mən bilmirəm, sonuncu dəfə həmkarlarım öz bölgələrində və ya Bakı küçələrində nə zaman əlil arabasında sərbəst və rahat gəzə bilən bir uşaq və ya gənc görüblər? Sözün açığını desəm, mən yaxın zamanlarda belə bir səhnəni xatırlamıram. Elə öz yaşadığım Naxçıvan şəhərində də. Əksər vaxtlar bu kateqoriyadan olan vətəndaşlarımız ya yolun hər hansı bir küncündə qorxu halında hərəkət edir, ya da ki, ümumiyyətlə, evlərindən çölə çıxa bilmirlər.

İkinci bir məsələ, həmin kateqoriyadan olan uşaqlarımızın xüsusi ilə uşaq bağçalarındakı prosesə cəlb edilməməsi sıx qarşılaşdığımız hadisələrdəndir. Bu gün ölkəmizdə 65 minə qədər sağlamlıq imkanı məhdud uşaq və gənc var. Şəhərlərimizin baş planının hazırlandığı bir vaxtda bu kürsüdən istifadə edib, bu planları hazırlayan aidiyyəti dövlət qurumlarından xahiş edirəm ki, həmin kateqoriyadan olan vətəndaşlarımızı nəzərə alsınlar. Yeni planlarda şəhərlərimizin daha inklüziv olmasını, səkilərimizin, yollarımızın həmin vətəndaşlarımız üçün istifadəyə yararlı olmasını daha ciddi nəzarətdə saxlasınlar.

Xanım sədr, növbəti bir xahişim, dövlət proqramından yararlanan uşaq və gənclərimizin sayı, onların təhsil

şəraiti, əldə edilən nəticələr və xüsusi ilə bölgələrdə bu istiqamətdə aparılan işlərlə bağlı Milli Məclisdə bir dinləmə keçirilməsinə şərait yaradasınız. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ancaq Siz bir uşağın adını çəkdiniz, Atilla. Ondan başladınız, axı, onun haqqında bizə heç nə demədiniz. Söyləyin görək, nədir? Siz adını çəkdiniz, ona görə deyirəm.

**C.Quliyev**. Xanım sədr, Atilla həmin kateqoriyadan olan fiziki məhdudiyyətli bir uşağımızdır. Son günlərdə onunla bağlı sosial şəbəkələrdə anasının geniş bir qeydi var idi ki, uzun müddətdir, övladını küçələrə çıxarmaq istəyir, onun bağ-bağçada gəzməsi üçün çalışır. Amma hər dəfə yollarımızın buna imkan verməməsindən, xüsusi ilə bu qəbildən olan bütün uşaqlarımızın belə əziyyət çəkməsindən geniş bir yazı yazmışdılar. Mən istəyirdim, onu diqqətinizə çatdıram.

**Sədrlik edən.** Çox sağ olun. Adil müəllim, bu məsələ ilə də məşğul olarsınız. Cəbi müəllim də sizin komitənizin üzvüdür. Cəbi müəllim, əgər kiminsə adını çəkirsinizsə, sözünüzü onunla başlayırsınızsa, deməli, mütləq bu mövzunu davam etdirməli idiniz. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Öncə, xanım sədr, Sizə, parlamentin Səhiyyə komitəsinin sədri hörmətli Əhliman müəllim Əmiraslanova səhiyyə sahəsində qanunvericiliyin yaxşılaşdırılması üçün göstərdiyiniz səylərə görə təşəkkür edirəm. Yaxşı ki, varsınız.

Bir ölkədə bir-birini təkrarlayan 2-3 səhiyyə qurumu gərək olmasın. Zənnimcə, tam olaraq A-dan Z-yə bütün müalicə, yəni xəstələrlə iş TƏBİB-ə verilməlidir. Müalicə TƏBİB-in işidir, səhiyyə siyasəti isə Səhiyyə Nazirliyinin.

Sevinc hissi ilə qeyd etmək istəyirəm ki, əvvəllər həftədə 20-30 nəfər xəstəliklərin müalicəsinə görə kömək istəyirdi. İndi bu rəqəm 3-4 nəfərdir. Şükür ki, ağır ürək əməliyyatları belə icbari tibbi sığorta ilə qarşılanır. Minlərcə ürək xəstələri sağlamlığına qovuşublar. Digər xəstəliklər də həmçinin. Həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, həm də TƏBİB-ə hörmətimi bildirirəm. Xeyli müsbət irəliləyişlər var. Çatışmayan məsələlər, problemlər də çoxdur və ümid edirəm ki, qarşılıqlı dialoq əsasında onların da həllinə nail ola bilərik. Sığortaya daxil olmayan bir çox xəstəliklərin müalicəsində isə əvəzolunmaz xidmət, təbii ki, Heydər Əliyev Fonduna məxsusdur.

Səhiyyə Nazirliyinin gördüyü işlər çoxdur. Bununla bərabər səhiyyə siyasətində ciddi axsamalar görürəm. Birincisi, Səhiyyə Nazirliyi və TƏBİB arasında konkret və ikili yanaşmaya heç bir əsas verməyən vəzifə və səlahiyyət bölgüsü təxirə salınmadan həyata keçirilməlidir.

İkincisi, bütün Azərbaycan bölgələri üzrə səhiyyə siyasəti müəyyənləşməlidir ki, ona, əsasən də, səhiyyə xidmətləri göstərilsin. Yas məclislərində olan zaman şahidlik edirəm ki, bəzi yerlərdə ürək, bəzi yerlərdə şəkər, bəzi yerlərdə onkoloji və buna bənzər xəstəliklər üstünlük təşkil edir. Bunlar araşdırılırmı, səbəblər nədir? Ətraf mühit, su, ərzaq məhsulları, yaxud hansısa sənaye obyektlərinə dair məsələlər və sair və sair və sair.

Xanım sədr, üç dəqiqə ərzində çox az şey deyə bilərəm. Amma deyiləsi və danışılası məsələlər həddindən artıq çoxdur. İstərdim ki, xanım sədr, təbii, məsləhət bilsəniz, – məhz ölkəmizin səhiyyə siyasəti ilə bağlı, – ictimai dinləmə olsun. Çox vacibdir. Ümid edirəm ki, hörmətli Əhliman müəllim bunu daha yaxşı əsaslandıra bilər. Mən,

sadəcə, etdiyim müraciətlər, aldığım məktublar, gördüklərim, yaşadıqlarım və müşahidə etdiklərim əsasında mülahizələr irəli sürürəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Rusiyaya işgüzar səfəri bir daha nümayiş etdirdi ki, iki ölkə arasındakı münasibətlər mehriban qonşuluq, dostluq, müttəfiqlik, qarşılıqlı fəaliyyət prinsiplərinə uyğun olaraq inkişaf etməkdədir. Bu da, təbii ki, çox təsirli amil rolunda çıxış edir. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, bu gün Azərbaycanla Rusiya arasındakı münasibətlər iki il öncə imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin prinsipləri üzrə inkişaf edir və iki ölkə arasında münasibətlərin xarakterini də təyin edir. Ayrıca olaraq, nəzərə almaq lazımdır ki, Azərbaycanla Rusiya arasındakı münasibətlərin xarakteri, ümumilikdə, Cənubi Qafqaz regionundakı vəziyyətə çox müsbət təsir göstərir və bu amil də, hesab edirəm ki, regionda nəzərə alınıb.

Hörmətli xanım sədr, bildiyimiz kimi, 2020-ci ildəki tarixi qələbəmizə bərabər olan digər bir qələbəmiz də ötən il aprel ayının 23-də Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin dövlətimiz tərəfindən qurulması ilə bağlıdır. Həqiqətən də, bu hadisə sonrakı dövrdə bütün ərazilərimiz boyunca dönməz və etibarlı şəkildə suverenliyimizin təmin olunmasının çox təsirli amili rolunda çıxış etdi. Ondan sonra Azərbaycanın atmış olduğu ardıcıl, sistemli addımlar bizi bütün hədəflərimizə çox effektiv şəkildə çatdırmış oldu. Ona görə də, hesab edirəm ki, bu tarixi günü ayrıca qeyd etmək lazımdır.

Əlavə olaraq, həm də onu vurğulamaq istəyirəm, Qazaxın dörd kəndinin Azərbaycana geri qaytarılması artıq onun göstəricisidir ki, həm Ermənistan, həm də ona dəstək olan bəlli dairələr Azərbaycan Prezidentinin çağırışlarına düzgün reaksiya nümayiş etdirməyi öyrəniblər. 2020-ci ilə qədər də biz çağırış edirdik ki, Ermənistan torpaqları dinc yollarla geri qaytarsın, lakin düzgün reaksiya görmürdük. Öz torpaqlarımızı hərbi yolla Ermənistanın işğalından azad etdik.

2020-ci ildən sonrakı mərhələdə də biz Azərbaycan ərazisindəki ermənilərə reinteqrasiya ilə bağlı çağırışlar etdik, separatçılara silahı yerə qoymaqla bağlı çağırışlar etdik. Lakin yenə də düzgün reaksiya görmədik. Bu dəfə də məsələni güc yolu ilə həll etdik. Azərbaycan Prezidenti yenə çağırış etdi ki, Qazaxın qeyri-eksklav olan 4 kəndi geri qaytarılmalıdır, Ermənistan tərəfi nəhayət, düzgün reaksiya nümayiş etdirdi, bu kəndləri geri qaytardı. Hesab edirəm ki, Azərbaycanın bugünkü güc mövqeyi...

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun. Hörmətli sədr, həmkarlar, media nümayəndələri. Mən öncə istərdim ki, xalqımızı, cənab Prezidenti, Birinci vitse-prezidenti, hörmətli sədr, Sizi və Yeni Azərbaycan Partiyasından olan həmkarlarımı xüsusi ilə təbrik eləyim. Biz, doğrudan da, 1991-ci ilin sərhədlərində ərazi bütövlüyümüzü bərpa etdik. Bu, çox böyük tarixi bir nailiyyətdir. Özümə borc bildim ki, hakim partiyanı bu münasibətlə təbrik edim. Ona görə ki, hər bir siyasi partiya, ölkəni yönəldən siyasi qüvvə üçün bu, doğrudan da, böyük bir şərəfdir.

Vaxtı ilə Azərbaycan Xalq Cəbhəsi Qarabağ hərəkatı yarananda qarşısına iki əsas məqsəd qoymuşdu. Birincisi,

ölkənin ərazi bütövlüyünü təmin etmək. İkincisi isə, onun müstəqilliyinə nail olmaq. Biz müstəqilliyə nail olsaq da, Qarabağ üzərində Azərbaycanın dövlət suverenliyini bərpa edə bilmədik və bu missiyanı Yeni Azərbaycan Partiyası yerinə yetirdi. Buna görə, əlbəttə, Yeni Azərbaycan Partiyasına mən öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Hörmətli sədr, onu da qeyd etməyi özümə borc bilirəm, biz bu parlament tribunasından növbəti dəfə Ermənistana müraciət etməliyik ki, onlar Azərbaycana qarşı düşmənçilik siyasətinə son qoymalıdırlar. Naxçıvana maneəsiz gediş-gəlişi təmin etməlidirlər. Bu ölkənin gələcəyi Azərbaycanla, qardaş Türkiyə ilə dostluqdan keçir, kommunikasiya xətlərinin açılmasından keçir. Bölgənin gələcək inkişafı və Ermənistanın bir dövlət kimi mövcudluğu, əmin-amanlıq içərisində yaşaması qonşuları ilə normal münasibətlər qurmağından keçir. Ermənistan xalqı, Ermənistan siyasi rəhbərliyi bunu nə qədər tez başa düşsə, bu, bölgənin inkişafına bir o qədər böyük təkan vermiş olacaq.

Mən, eyni zamanda, düşünürəm ki, bu gün həm də qonşu, – müəyyən mənada da elə orada az qala əhalinin yarısı Azərbaycan türkləridir, – türk dövləti saydığımız İran İslam Respublikası da Azərbaycana münasibətdə öz siyasətini dəyişməlidir. Onların rəsmiləri, səfirləri Azərbaycan xalqını qıcıqlandıran, münasibətlərimizə zərər verən açıqlamalardan çəkinməlidirlər. Necə ki, Ermənistanın Azərbaycana münasibətdə yürütdüyü düşmənçilik siyasəti heç bir nəticə vermədi, İranın da Azərbaycana münasibətdə yürütdüyü, bəzən təzyiq, bəzən gözdən salma, bəzən də daxilimizdə ayrı-ayrı qruplardan istifadə etmək məqsədi ilə müəyyən təxribatlar törətmək cəhdləri

də heç bir nəticə verməyəcək. Ona görə İran da nə qədər tez düz yola qayıtsa, bir o qədər yaxşıdır. Mən parlament tribunasından hər iki ölkəni...

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Əvvəla, mən də Qüdrət bəyə təşəkkür edirəm. O, bir müxalif partiyanın rəhbəri olaraq iqtidarın qazandığı tarixi nailiyyətləri, tarixi uğurları qeyd etdi, təşəkkür etdi. Hesab edirəm ki, bu, bir sağlam müxalifət yanaşmasıdır. Əslində, müxalifətçilik elə məhz belə olmalıdır.

O ki qaldı öz çıxışımla bağlı. Əvvəla, qeyd edim ki, Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqaməti ikitərəfli münasibətlər formasıdır. İkitərəfli münasibətlər yüksək səviyyədə olanda üçtərəfli, dördtərəfli, hətta beştərəfli və bütövlükdə, çoxtərəfli münasibətlər formalaşır. Eyni məntiqlə də mən hesab edirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi bu xarici siyasət kursu həm Birləşmiş Ştatların, həm Avropa İttifaqının, Rusiyanın, həm də dünyanın müxtəlif güc mərkəzlərinin Azərbaycana münasibətdə mövqeyində ifadə olunur.

Belə ki, aprel ayının 5-i Brüssel görüşü ərəfəsi ABŞ-nin dövlət katibi və eyni zamanda, Avropa Komissiyasının Prezidentinin Azərbaycan Prezidentinə telefon zəngi açmaları, 5 aprel görüşündə müzakirə olunacaq məsələlər haqqında məlumat vermələri, onların bu çıxışı, onların bu mövqeyi bir az da açıq dəstək, elə bir az hesabata oxşayırdı. Bu, cənab Prezidentin yeritdiyi siyasətin, hesab edirəm, çox böyük uğurudur. Eyni zamanda, ölkə Prezidentinin Vladimir Putinin dəvəti ilə Rusiyaya səfəri, bir daha onu göstərir ki, Azərbaycan dövləti müxtəlif güc

mərkəzindən bərabər məsafədə dayanmağı bacarır. Bütün dünyaya çox ciddi mesajdır ki, bizim Moskva ilə münasibətlərimizdə yaxınlaşma heç bir halda Brüssel və Vaşinqton əleyhinə deyil. Azərbaycanın Brüssel və ya Vaşinqtonla münasibətlərinin istiləşməsi isə heç bir halda Kremli və yaxud digər, üçüncü tərəfi hədəf almayıb. Azərbaycan dövlətinin başçısı müstəqil və milli maraqlara söykənən siyasət həyata keçirir. Öz sözləridir. Cənab Prezidentin sözləridir ki, bu, çox çətindir, ən asanı nədir? Ən asanı odur ki, böyük bir dövlətin qanadları arasına sığınırsan, o səni hifz edir. Amma bu dünyada heç nə havayı olmur, bil ki, bunun qarşılığında nələri isə güzəştə getməlisən.

Amma Azərbaycan Prezidenti müstəqil siyasət həyata keçirir. Bu, çətindir, amma şərəflidir, bizi çox bəlalardan hifz edən bir siyasətdir. Biz onun təntənəsini həm İkinci Qarabağ müharibəsində, həm bir günlük antiterror tədbirlərində, həm də indi Qazaxın 4 kəndinin bir güllə atılmadan qaytarılmasında, Rusiya sülhməramlı qüvvələrinin Qarabağdan vaxtından əvvəl çıxarılmasında gördük. Bu siyasətin davamı isə Azərbaycanı daha böyük nailiyyətlərə gətirib...

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Hörmətli sədr, aprelin 19-da 4 kəndin işğaldan azad olunması xəbəri 44 günlük müharibədə Ali Baş Komandanın xalqa tarixi müraciətlərinin davamıdır. Nəinki bir kənd, hətta bir ev də vətəndir. Təkcə Qarabağ və ətraf ərazilərdə deyil, daha böyük coğrafiyalarda itirdiyimiz tarixi yurd yerlərinin qaytarılması İlham Əliyevi son 3 əsrin qəhrəmanına çevirir. Bir kəndin, Nüvədinin itirilməsi ilə Naxçıvanın Azərbaycandan ayrı düşməsi tarixi reallığı indi qaytarılan 4 kəndin ərazisindən

daha böyük mənəvi, siyasi və hərbi təhlükəsizlik əhəmiyyətini sübut edir. Elə Rusiya–Ukrayna müharibəsində hər kənd uğurunda həyatını itirən minlərcə insanı gördükdə, Ağdam, Kəlbəcər, Laçın, Zabux, Sus, o cümlədən 4 kənd üçün verilməyən şəhidlərimiz üzərindən hesablayanda qələbəmizin dəyəri daha böyük görünür.

Rus dilində məşhur bir ifadə var: "собиратель земель". Dilimizdə qarşılığı ona görə yoxdur ki, onu qazanan rəhbərimiz olmayıb. İndi sərhəd xətlərini ordunun və diplomatiyanın gücü ilə yenidən çəkən, Rəsulzadənin, Nərimanovun, Bağırovun yarımçıq qalan arzularını gerçəkləşdirən lider, məhz "собиратель земель"dir. Torpaqları toplayanda millət də, dövlət də böyüyür. Prezident dünən kollektiv Qərblə savaşan Putinə onun 1960 nəfərlik ordusundan çox məhz Azərbaycanın qlobal fitvalara qoşulmadan, forpost olmadan Bakıdan Moskvaya zərbə vurulmayacağına zəmanət verir. Ən böyük sülhməramlı da odur. Bizim liderdir.

"Qarabağ işğal olunub" deyən Avropa Parlamentindən, Fransadan fərqli olaraq 19 aprel razılaşması Qərbin əleyhimizə apardığı etnik təmizləmə və ilhaq kampaniyasına da zərbə vurur, Azərbaycanın Ermənistana hücum edəcəyinə dair son 6 ayda tirajlanan dezinformasiyaları da alt-üst edir. Ona görə sazişi BMT baş katibi, ABŞ Dövlət katibi, Avropa İttifaqının rəhbərləri alqışladılar. "Ermənistanın siyasi qətnamə və silahlarla təchizinin Azərbaycana qarşı olmadığını, İrəvan müharibəyə hazırlaşırsa, niyə 4 kəndi sülh yolu ilə qaytarır" deyənlər bilsin ki, Paşinyanı belə addıma vadar edən 44+1 gündür.

Şuşa və Xankəndi zəfərinin, bütövlüyümüzün memarının məhz Ulu Öndər olduğunu deyərkən dünən Kremldə Heydər Əliyevin misilsiz xidmətlərinin vurğulanmasını,

XXI əsrin qlobal siyasətini müəyyən edən Baykal–Amur magistralının Zəngəzur dəhlizi ilə birləşəcəyini, nəhəng Şimal–Cənub marşrutuna da yaşıl işıq salacağını qürurla söyləməliyik. Əlbəttə, kəndlərin qaytarılmasına ya bütövlükdə, ya da birtərəfli olduğu üçün etiraz edən 26 sentyabr beyinlilərə də Paşinyanın dili ilə cavab verməliyik. Erməni baş nazir Bakının ultimatumunu son bir ayda iki dəfə Tavuş camaatına çatdırarkən xəbərdar etdi ki, əgər razılaşmasanız, regionda partlayış olacaq. Yəni sadə dilə çevirsək, Paşinyan demək istədi ki, mən gedirəm, sonra torpağın əsl sahibi İlham Əliyevin özü gələcək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Hər birinizi salamlayıram. Dünyada texnologiyanın yüksək sürətlə inkişaf etdiyi bir zamanda məhz texnologiya qaynaqlı problemlər istənilən cəmiyyətdə insanların gündəlik qayğılarından birinə çevrilib. Xüsusi ilə də cəmiyyətdə elə yaş qrupları var ki, məhz onlar arasında bu kimi problemlərin daha çox müşahidə edildiyini görürük. Bu problemlərin başlıcası isə şəxsi məlumatların ya oğurlanması, ya da hər hansı fırıldaqçılıq yolu ilə şəxsin özündən bu məlumatların birbaşa alınmasıdır. Təəssüflər olsun ki, Azərbaycan cəmiyyətində də bu kimi hallar artmaqdadır. İnsanlar bank adı ilə gələn zənglərin, həqiqətən, bankdan, yoxsa, başqa bir şəxs tərəfindən hansı məqsədlə edildiyini bilmirlər. Əksər hallarda isə bu kimi zənglərə inanaraq şəxsi məlumatları qarşı tərəfə ötürürlər. Bu da bütün kart balansının oğurlanması və sıfırlanması ilə nəticələnir.

Kiber cinayətkarlar kart istifadəçilərini əvvəlcədən

qorxudaraq ardından isə köməklərini təklif edirlər. Bəzi şəxslər də, təbii ki, dərhal buna inanaraq qarşı tərəfin bütün suallarını əskiksiz yerinə yetirir və nəticədə kiber cinayət hadisəsi baş verir. Azərbaycanın müvafiq qurumları kiber cinayətkarlığa, bu işlə mütəşəkkil məşğul olan dəstələrə qarşı müntəzəm əməliyyatlar həyata keçirsələr də, bu istiqamətdə məlumat yetərsizliyinin olması ən böyük çatışmazlıqlardan biridir.

Kiber təhlükəsizlik milli deyil, qlobal problemdir. Dünyada elə bir cəmiyyət yoxdur ki, bu kimi hallarla qarşılaşmasın. Lakin nəzərdə tutulan yaş qrupları üçün məlumatlandırma sessiyaları ilə, sosial çarxlarla bu sahədə savadlılıq və sosial immunitet artırıla bilər. Kiber cinayətkarlığa qarşı mübarizədə hər bir dövlətin özünün fəaliyyət proqramı, strategiyası var və bizim də var. Yalnız məsələnin sosial yönü bizim hər birimizi maraqlandırır. Çünki hər birimiz, ailə üzvlərimiz buna məruz qala bilərik və qalırıq da. Buna görə də müvafiq qurumları, bank sektorunu, kütləvi informasiya vasitələrini, televiziya kanallarını vətəndaşlar üçün çarxlar paylaşmağa, bu istiqamətdə xəbərdaredici fəaliyyətlər görməyə çağırıram ki, istənilən zəngə qarşı tərəfin ondan nə istədiyini və kiminlə qarşı-qarşıya qaldıqlarını ayırd edə bilsinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Gündəliyin məsələlərinə keçirik. Bu gün bizim gündəliyimizdə 18 məsələ var. Gündəliyin ilk 3 məsələsi beynəlxalq sazişlərin təsdiq edilməsi ilə bağlıdır və qanunvericiliyin tələbinə əsasən onlar bir oxunuşda baxılıb qəbul edilməlidir.

Onu da qeyd edim ki, 1-ci və 2-ci məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil

olub. Gündəliyin 1-ci məsələsi “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Mən hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, xahiş edirəm, qanun layihəsi haqqında məlumat verin. Buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlar. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş” 2024-cü il fevralın 19-da Ankara şəhərində imzalanmışdır. Preambuladan və 13 maddədən ibarət olan sazişin məqsədi tərəf dövlətlər arasında baytarlıq sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, baytarlıq nəzarətində olan yüklərin qarşılıqlı ticarətinin asanlaşdırılmasıdır. Bu əməkdaşlıq insan və heyvan sağlamlığının qorunması, yoluxucu heyvan xəstəliklərinin meydana gəlməsinin və yayılmasının qarşısının alınması baxımından əhəmiyyətlidir və mövcud sahədə fəaliyyət istiqamətlərinin tənzimlənməsini nəzərdə tutur.

Türkiyə ilə Azərbaycan arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında saziş ilk dəfə 2005-ci ildə imzalanmışdır. Bu saziş qüvvəyə mindiyi gündən köhnə müqavilə öz qüvvəsini itirir.

Sazişin müddəalarının həyata keçirilməsi üzrə səlahiyyətli qurumlar Azərbaycan Respublikası Hökuməti adından Qida Təhlükəsizliyi Agentliyi, Türkiyə Respublikası Hökuməti adından Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyidir.

Bu saziş müddətsiz olaraq qüvvədə qalır. Xahiş edirəm, münasibət bildirəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Bu məsələyə ikinci bir komitədə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Bu gün komitənin rəyini komitənin üzvü hörmətli Elman Nəsirov bildirəcək. Elman müəllim, buyurun, bu gün Siz rəy bidirəcəksiniz.

**E.Nəsirov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Hörmətli xanım sədr, qeyd etmək istəyirəm ki, Türkiyə ilə bizim münasibətlərimiz bütün sahələrdə inkişaf edir və bu baxımdan kənd təsərrüfatı sahəsi də istisna deyil. Hörmətli həmkarım Tahir müəllim çox geniş, müfəssəl məlumat verdi. Ona görə də əlavə bir şey demək istəmirəm, komitəmizdə müzakirə olunub və plenar iclasa təqdim edilib. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bizim 1-ci məsələmiz olan qanun layihəsi qəbul edildi.

İndi isə biz 2-ci məsələyə keçirik. Bu, "Azərbaycan

Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" 2024-cü il fevralın 19-da Ankara şəhərində imzalanmışdır. Qeyd edim ki, Azərbaycan və Türkiyə arasında ilk belə saziş 1994-cü ildə imzalanmışdır. Amma keçən dövr ərzində ölkələrarası iqtisadi münasibətlərin kifayət qədər zənginləşməsi, həm də vergitutmada yeni tendensiyaların yaranması yeni bir sazişin bağlanmasına zərurət yaratmışdır. Hazırkı saziş həm Azərbaycan iqtisadiyyatına Türkiyə investisiyalarının cəlb edilməsi, həm də bir dövlətin müəssisələrinin və fiziki şəxslərinin digər dövlətdə iqtisadi fəaliyyətlə məşğul olduqları zaman onlar üçün əlverişli vergi mühitinin yaradılmasına şərait yaradır.

Sazişin müddəalarında hansı şəxslərin və hansı növ gəlir və əmlakın vergiyə cəlb edilməsi və ya vergidən azad edilməsi açıq şəkildə göstərilmişdir. Azərbaycan Respublikasına münasibətdə sazişin tətbiq etdiyi vergilər hüquqi şəxslərin mənfəət vergisi və fiziki şəxslərin gəlir vergisidir. Sazişə görə əgər tərəf dövlətlərdən birinin

rezidenti digər tərəf dövlətdə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə, rezidenti olduğu dövlət həmin rezidentin gəliri üzrə vergidən digər tərəfə ödənilən gəlir vergisinə bərabər məbləği çıxmağa icazə verir. Yəni sadə şəkildə desəm, bir Azərbaycan vətəndaşı Türkiyədə əldə etdiyi gəlirə görə Türkiyədə vergi ödəyirsə, o zaman Azərbaycanda ödəyəcəyi vergi həmin vergi qədər azaldılacaqdır. Bu, hər iki ölkə vətəndaşlarına bir ölkədə vergi ödədiyi zaman digər ölkədə vergi ödəməməsi imkanı yaradacaqdır.

Hörmətli həmkarlar, Azərbaycan və Türkiyə arasında münasibətlər sürətlə inkişaf edir. Təkcə son bir il ərzində Azərbaycan və Türkiyənin ticarət dövriyyəsi 31 faiz artaraq 7,6 milyard dolları keçmişdir. Hazırda Türkiyədə 2800 Azərbaycan şirkəti, Azərbaycanda isə 5800-ə yaxın Türkiyə şirkəti fəaliyyət göstərir. Ölkələrimiz arasında bu cür iqtisadi münasibətlərin artması belə bir sazişin yenilənməsinə şərait yaratmışdır və biz komitə olaraq əminik ki, yeni bağlanan bu saziş Azərbaycan və Türkiyə arasında iqtisadi fəaliyyəti daha da aktiv edəcəkdir. Bizim komitənin rəyi müsbətdir. Hər kəsdən qanunu dəstəkləməyi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Elman müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm, komitəni rəyini bildirin. Buyurun.

**E.Nəsirov**. Xanım sədr, hörmətli həmkarlar. Bəli, sözügedən qanun layihəsi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində müzakirə olunub və qərar müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Sahib müəllim, bu dəfə qaldınız da, siyahıdan çıxmadınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**S.Alıyev**. Təşəkkür edirəm. Hörmətli, dəyərli həmkarlar. Mən də hörmətli Tahir müəllimə qoşularaq, hesab edirəm ki, sözügedən qanun layihəsi Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da dərinləşməsi yolunda atılan növbəti addımdır və təkcə Azərbaycanla Türkiyənin deyil, bu, eyni zamanda, türk dünyasının sıx inteqrasiyasına da yol açır.

Burada az öncə hörmətli Siyavuş Novruzovun haqqında danışdığı antimilli ünsürlərdən söhbət salmaq istəyirəm ki, onlar yenə də haylarla çiyin-çiyinə Azərbaycan–Türkiyə əməkdaşlığına zərbə vuran açıqlamalar verir və guya dövlətlərimizin fərqli mövqedə durduqlarını nəzərə çatdırırlar. Bunun sifarişinin haradan gəldiyi kimsəyə sirr deyil. Bütün bu sifarişlərin arxasında yenə də Azərbaycanla Türkiyəni Rusiya ilə üz-üzə qoymağa çalışan qüvvələr durur. Amma Azərbaycan Prezidenti cənab İlham Əliyevin Moskvaya dünənki səfəri göstərdi ki, onların bu cəhdləri əbəsdir.

Hesab edirəm ki, bu səfər işgüzar xarakterli olsa da, əslində, aramızdakı əməkdaşlığa ağ səhifədən başlanmasının özülünü qoymaqla tarixi önəm daşıyır. Ona görə tarixi önəm daşıyır ki, iki dövlət arasında əlaqələrin dərinləşməsinə maneçilik törədən faktorlar, demək olar, aradan qalxıb.

Moskva səfərində BAM-ın 50 illiyinin qeyd edilməsi və orada Ulu Öndərin rolunun özəlliklə vurğulanmasında mən bir əlamət görürəm və fikirləşirəm ki, XIX əsrdə planlaşdırılsa da, XX əsrin 30-cu illərində tikintisinə başlanılan və dəfələrcə təxirə salınan BAM Ulu Öndərin böyük təşkilatçılıq bacarığı sayəsində necə ərsəyə gəldisə,

cənab İlham Əliyev də Zəngəzur dəhlizini o cür reallaşdıracaq. Ümid etmək istərdim ki, BAM-dan təqribən 102 dəfə qısa olan Zəngəzur dəhlizinin reallaşmasında Rusiya da özünün bütün təsir rıçaqlarını işə salacaq. İstənilən halda Azərbaycan cəmiyyətində artıq Rusiyaya yanaşma digər keçmiş iki həmsədr ölkəyə yanaşmadan fərqlənir. Çünki Rusiya keçmiş həmsədrlər, ABŞ və Fransadan fərqli olaraq, torpaq bütünlüyümüzü tanıdığını açıq şəkildə dilə gətirib. Özünün hərbi kontingentini vaxtından əvvəl Qarabağdan çıxarmağa başlaması isə sözdə deyilənlərin əməldə də təsdiqlənməsidir.

Əlbəttə, bu, qarşı tərəfin xeyirxahlığından çox, Azərbaycanın yaratdığı reallığın və bütün riskləri göz önünə alaraq atdığı addımların nəticəsidir ki, onların da arasında ötən il bu gün baş verənlər, eləcə də sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri mühüm rol oynayır.

Ötən il bu gün baş verənlər deyərkən, Laçında sərhəd keçid məntəqəsinin qurulmasını nəzərdə tuturam. Bu addımı atmaqla Azərbaycan öz torpaqları üzərində suverenliyini tam təmin etməyə qərarlılığını və bunun üçün bütün risklərə hazır olduğunu göstərdi. Xatırlayırsınızsa, regionda "qırmızı xətt" çəkənlərdən tutmuş, onların "şeytan" adlandırdıqlarınadək bütün yırtıcılar ayağa qalxaraq geriyə addım atmamızı istədilər. Amma unudurdular ki, iradə dəmirdirsə, verilən əmrdirsə, o, heç vaxt geriyə oxunmur. O dəmir iradəlinin ötən il bu gün verdiyi əmrin nəticəsi idi ki, Rusiya hərbi kontingenti Qarabağı vaxtından əvvəl tərk etdi. Elə Qazaxın dörd kəndinin geri qaytarılmasında da ötən il bu gün atılan addım az rol oynamadı.

Qədim Çin mütəfəkkiri və strateqi Sun-Tszı hərb

sənətində yüz döyüşdən yüzündə də zəfər çalmağı zirvə saymadığını, zirvənin məqsədə döyüşsüz çatmaq olduğunu bildirirdi. Müzəffər Ali Baş Komandanımız sözügedən dörd kəndimizi, onlardan da qabaq Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz geri qaytarmaqla məhz belə bir örnək ortaya qoyub.

4 kəndin geri qaytarılması, əslində, təkcə Ermənistan deyil, həm də beynəlxalq hüququn ancaq özləri istəyəndə işləməsini, digər hallarda, BMT-nin bizə bəlli 4 qətnaməsinin kağız üzərində qalmasını planlaşdıranların üzərində qələbə idi.

4 kəndimizin qaytarılmasını Almatı bəyannaməsinə bağlayanlar maraqlıdır, 30 ildə niyə bircə dəfə belə həmin sənədin adını çəkmirdilər? 3 ildə nə baş verdi ki, Almatı bəyannaməsi yadlarına düşdü? Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sahib müəllim, Siz 3 dəqiqə əvəzinə 4 dəqiqədən çox danışdınız. Əslində, görünür, 3 dəqiqəyə hazırlaşmışdınız. Çox mühüm məsələ ilə bağlı danışırdınız, ona görə mən Sizin sözünüzü kəsmədim. Amma bu, qanun layihəsinə aid deyil. Presedent yaratmayın, xahiş edirəm. Lazım idi, təkidlə deyərdiniz ki, mən 3 dəqiqəlikdə danışmaq istəyirəm.

Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələyə keçirik. “Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsi. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, ilk öncə, burada qeyd olundu, mən Sizin icazənizlə, sadəcə, iki kəlmə Qazaxı təmsil edən bir şəxs kimi, qazaxlılar adından təşəkkürümü bildirmək istəyirəm.

Qazaxın kəndləri həm təbiətinə görə, həm də strateji əhəmiyyətinə görə ən gözəl kəndləridir. Bu gün hər bir qazaxlı xoşbəxtdir. Biz bir də onun şahidi olduq ki, cənab Prezident nəyi, necə, nə vaxt həll etməyi çox gözəl bilir. Eşq olsun Ali Baş Komandanımıza! Ona bütün qazaxlıların da adından biz çox sağ ol, deyirik. Bu gün bütün Qazax gözəl bir bayram yaşayır və o 4 kənd də inkişaf edən, gözəlləşən Qazaxa qovuşacaq.

Hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi öz-özlüyündə həddindən artıq vacib və əhəmiyyətli bir qanun layihəsidir. Ona görə ki, biz bütün qitələrlə, o cümlədən Avropa ilə əlaqələrimizi ən yüksək səviyyədə təşkil edirik. Son zamanlar bəzi fikirlər səslənir ki, biz Avropa ilə deyil, başqa istiqamətdə əlaqələrimizi qurmalıyıq. Əsla belə deyil. Bizim prioritetlərimizin içərisində, o cümlədən Avropa ölkələri də mövcuddur. Sadəcə, Azərbaycan o

dərəcədə yüksəlib, o dərəcədə geniş, əhatəli beynəlxalq münasibətlər aparır ki, onun bütün qitələrlə, bütün ölkələrlə əlaqələrini ən yüksək səviyyədə təşkil etməyə imkanı da var və potensialı da göz qabağındadır. O cümlədən Azərbaycana dost olan Albaniya ilə münasibətləri yeni bir müstəviyə yüksəltmək həddindən artıq vacib olan bir məsələdir.

Albaniya Avropada kiçik bir ölkədir. Ancaq mədəniyyət, dünyaya baxış, dini məsələlər, Avropa inteqrasiyası nöqteyi-nəzərdən Azərbaycanın yanaşmasına çox yaxındır. Azərbaycan həmişə Albaniyaya kömək göstərib – orada baş vermiş zəlzələ ilə bağlı maddi, humanitar yardımların göstərilməsində, pandemiya dövründə vaksinlərin göndərilməsində. Heç də təsadüfi deyil ki, Albaniya rəhbərliyi elə 2024-cü ilin martın əvvəlində Humanitar forumda həm Albaniyanın Prezidenti, həm də Baş nazir səviyyəsində Azərbaycanda işgüzar səfərdə olublar.

Biz bu gün Azərbaycan pasportunun nə dərəcədə dünyada genişlənməsinin, özündə güc tapmasının və artıq dünyada sayılan, seçilən pasportlar sırasına daxil olmasının şahidi oluruq. Bosniya və Herseqovina, Monteneqro, Serbiya və bu gün də bu qanun layihəsində Albaniya ilə vizaların tam götürülməsi məsələsi gündəmə gəlib. Yəni bu gündən sonra Azərbaycan vətəndaşı ümumvətəndaş pasportu ilə dost və bizimlə ən yüksək səviyyədə əlaqələr qurmaq niyyətində olan ölkə ilə – Albaniya ilə münasibətlərə əsasən gediş-gəlişi sərbəst şəkildə təşkil etmək imkanına malikdir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində bu məsələ ən yüksək səviyyədə müzakirə edilərək, yekdilliklə müsbət fikir söylənmişdir. Ona görə bu gün bunun qəbul olunmasını tövsiyə edirik. Diqqəti-

nizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. 4-cü məsələ "Sosial sığorta haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun. Keçən dəfə də bununla bağlı məlumatı Siz vermişdiniz. Buyurun.

**A.Nağıyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, media nümayəndələri. Layihə birinci və ikinci oxunuşda hərtərəfli müzakirə edilmiş və hazırda üçüncü oxunuşda təqdim edilir. Birinci və ikinci oxunuşlarda həmkarlarımız layihə ilə bağlı öz müsbət fikirlərini bildirdilər və hər hansı bir irad yoxdur. Layihənin üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Tahir müəllim, sizin komitənizdə də baxılıb – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində. Xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik, 5-ci məsələmizdir. "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bildiyiniz kimi, layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Rəşad Mahmudova söz verirəm. Rəşad müəllim, buyurun.

**R.Mahmudov,** *Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini.*

Çox hörmətli xanım sədr, dəyərli həmkarlar. Sözügedən qanun layihəsində təqdim olunan dəyişikliklər də məhz

“Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş müvafiq norma və yeni anlayışların təklif olunan qanunlarda tətbiqini, habelə bir sıra terminlərin dəqiqləşdirilməsini nəzərdə tutur. Bu qanun layihəsi ilə əlaqəli istər birinci, istərsə də ikinci oxunuşlarda və eləcə də daha sonra komitəmizə hər hansı bir təklif və irad daxil olmamışdır. Qanun layihəsini olduğu kimi səsverməyə qoyulmasını xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Rəşad müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 3 komitədə baxılmışdır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində, Əmək və sosial siyasət komitəsində və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində. Mən indi Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirmək üçün komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Əmək və sosial siyasət komitəsinin rəyini bildirmək üçün mən komitənin üzvü hörmətli İlham Məmmədova söz verirəm. Buyurun.

**İ.Məmmədov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, komitədə müzakirə zamanı heç bir əlavə və dəyişiklik olmamışdır. Təklif də daxil olmamışdır. Ona görə də səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, İlham müəllim.

Dediyim kimi, 3-cü komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Tahir müəllim, buyurun, Siz rəyinizi bildirin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin də rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Qanun layihəsi üçüncü oxunuşda səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyimizin növbəti 2 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. 6-cı məsələ "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. İlk oxunuş

zamanı layihə barədə geniş məlumat verilmişdir. Hər hansı bir irad və təklif yoxdur. İkinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Nurlan müəllim, çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa yazılan yoxdur, ona görə səsverməyə keçirik. Bilirsiniz ki, ilk öncə maddələr üzrə səs verməliyik. Bu layihədə 2 maddə var. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Nurlan müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, Siz məlumat verirsiniz.

**N.Həsənov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. İlk oxunuş zamanı layihə barədə konseptual baxımdan geniş məlumat verilmişdir. İlk oxunuş zamanı bəzi deputat həmkarlarımız çıxışa yazılmışdı və məlumat üçün

bildirim ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndələri ilə birlikdə həmin deputat həmkarlarımızı dəvət edərək onlarla işçi qaydada müzakirələr apardıq. Bununla bağlı həmin görüşdə yaradılması nəzərdə tutulan süni torpaq sahələrinin ətraf mühitə təsiri ilə bağlı səsləndirilən bəzi fikirləri nəzərə alaraq, 1 məsələni xüsusi qeyd etmək istəyirəm.

Hazırda mövcud qanunvericiliyimizin tələblərinə görə su fondu torpaq sahələrində süni adaların yaradılması ilə bağlı ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunur. Bu qiymətləndirmənin məqsədi ətraf mühitə və insan sağlamlığına mümkün təsirlərin araşdırılması və aradan qaldırılmasıdır. Bu proses tikintinin layihələndirmə mərhələsində sifarişçinin vəsaiti hesabına həyata keçirilir. Hazırda təqdim olunan qanun layihəsində də bu tələb nəzərə alınır. Layihədən də göründüyü kimi, ətraf mühitə təsirin qiymətləndirilməsi keçirildikdən sonra əlavə olaraq bununla bağlı dövlət ekoloji ekspertizasının keçirilməsi nəzərdə tutulur. Bunlar olmadan süni torpaq sahəsinin yaradılması ilə bağlı su fondu torpaq sahəsi ayrılması mümkün deyil.

Ümumiyyətlə, bu proses kifayət qədər ciddi prosesdir və süni torpaq sahəsinin yaradılması məqsədi ilə su fondu torpaq sahəsinin ayrılması barədə müraciət Ekologiya və Təbii Sərvətlər Nazirliyindən başlayır, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən yoxlanılır və bununla bağlı yekun qərarı Nazirlər Kabineti verir. Yəni hüquqi və prosedur tənzimlənmə aparılarkən Xəzər dənizinin ekoloji vəziyyətinin qorunması üçün dövlətin maraqları və müdaxilə imkanları mütləq nəzərə alınır.

Sonda bir daha xüsusi vurğulamaq istəyirəm ki, bu qanunun qəbul edilməsində məqsəd süni torpaq sahələ-

rinin yaradılması ilə bağlı məsələləri tənzimləməkdir. Ətraf mühit, tikintinin xüsusiyyətləri, təhlükəsizlik və digər məsələlər müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Bu qanun, sadəcə, mövcud sahədə boşluqları aradan qaldırır və kompleks hüquqi tənzimlənməni təmin edir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim indi mənə məlumat verdi. Xatırladım ki, bəzi məsələlərlə bağlı birinci oxunuşda suallar olmuşdu. Əli müəllim, sizin komitədə bir dəfə də işçi qaydada keçən dəfə qaldırılan məsələlərlə bağlı müzakirələr keçirilib.

Hörmətli həmkarlar, qanun layihəsinə daha 3 komitədə baxılmışdır. Tahir müəllim, birinci sizin komitədir – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, həmkarım Nurlan müəllim həm birinci oxunuş zamanı, həm də bir az öncə həm müzakirələr, həm də qanun layihəsi haqqında geniş məlumat vermişdir. Bizim İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanun layihəsini iqtisadi mahiyyəti üzrə kifayət qədər vacib sayır. Düşünürük ki, Azərbaycanda iqtisadi inkişafın qeyri-neft sektorunun hesabına, xüsusi ilə də turistlərin cəlb olunması baxımından layihə indiki zamanın tələblərinə cavab verir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanunda hər hansı bir dəyişiklik etməmək qərarına gəlmişdir. Ona görə biz layihəni olduğu kimi dəstəkləyirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. İndi isə Aqrar siyasət komitəsinin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, bu məsələ sizin komitəyə də aiddir. Buyurun.

**T.Rzayev.** Çox sağ olun, hörmətli sədr. Qanun layihəsi komitədə geniş müzakirə olunub, komitənin rəyi müsbətdir. Səsə qoymaq olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Mən sözü Sadiq müəllim, Sizə verirəm. Buyurun, Sadiq Qurbanov.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. İkinci oxunuş zamanı komitədə heç bir sual yaranmadı. Olduğu kimi səs qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, müzakirəyə keçməzdən əvvəl qanun layihəsini əsas kimi qəbul etməliyik, ikinci oxunuşdur. Buyurun, bu qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Mən görürəm, yazılanlar var. Buyurun, müzakirəyə keçək. 5 dəqiqə təklifi var. Razısınızsa, çıxışlar 5 dəqiqə olsun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bir neçə məsələ ilə əlaqədar, hesab

edirəm ki, aydınlaşdırmağa ehtiyac var. O komitə iclasında iştirak etməmişik, ona görə də hər halda maraqlı olardı.

Birincisi, bilirsiniz, biz bundan əvvəl digər qanunlarımızda qəbul etmişik ki, Xəzər dənizinin kənarında əvvəl sahildən 300 metr məsafədə tikinti aparılmasına icazə verilmirdi. Sonra biz bunu 150 metrə endirdik. Yəni sahilə 150 metr məsafəyə qədər tikinti işləri aparmaq olmazdı. Bu, həm turizm, həm də yaşayış və sair obyektlərə aid idi. Burada bu məsələlər necə tənzimlənəcək? Çünki bu qanunun, ola bilsin ki, predmeti deyil, amma paralel olaraq bunun o biri qanuna da təsiri var. Əgər dənizin ortasında biz hər hansı adalar yaradırıqsa, avtomatik olaraq digər qanun layihəsi hansı formada öz həllini tapacaq? Bu bir.

İkincisi, dünyada bir çox yerlərdə var. Düzdür, Xəzər dənizi sülh və əmin-amanlıq dənizidir və imzalanan protokollarda, 5 tərəfli protokolda da bu, bəyan olunub. Amma eyni zamanda, dünyanın müxtəlif ölkələrində, götürək, Çində, Rusiyada, Yaponiyada, Amerikanın özündə və sair müxtəlif okean və dənizlərdə, demək olar ki, hərbi strateji məqsədlərlə də adalar yaradılır. Orada müvafiq bazalar yerləşdirilir ki, ondan istifadə olunacaq. Gələcəkdə belə bir şeyə ehtiyac duyulacaqmı, yoxsa duyulmayacaqmı? Bu ikinci.

Üçüncüsü, burada əsas investisiya qoyan şirkətlərin cəlb olunması hansı formada olacaq? Bunlara, bu məsələlər ilə bağlı Tahir müəllim indi yəqin ki, fikirlərini bildirə bilər. Güzəştlər nəzərdə tutulubmu? Çünki orada görüləcək işin həcmi həddindən artıq böyükdür. Həm onun qurudulmasıdır, həm də orada tikintinin aparılmasıdır. Adi bir yerdə tikintinin aparılmasından daha çox vəsait tələb olunur. Onlara hər hansı bir güzəştlər nəzərdə

tutulmayıb. Təşəkkür edirəm.

**Sədrlik edən.** Mətnlə bağlı heç bir təklif yoxdur, mətnlə bağlı? Var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, biz ikinci komitə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq iqtisadi tərəfləri müzakirə etdik. Amma bu gün mən maddələr üzrə daha çox hüquqi baxımdan təkliflərimi təqdim etmək istərdim.

Nəzərə alaq ki, əsas komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Layihədə ikinci oxunuşun tələblərinə uyğun olaraq, 1-ci maddənin dəyişilməsi və "Əsas anlayışlar" kimi təqdim olunmasını təklif etmək istərdim. Çünki layihə kifayət qədər vacibdir və çoxlu sayda anlayışlardan istifadə olunur. Təbii ki, o anlayışların bir qismi digər qanunvericilik aktlarında öz əksini tapır. Amma əsas anlayışlar kimi verilməsinə və əsas anlayışların izah edilməsinə ehtiyac var. Çünki məqsəd həm də kiçik və orta sahibkarları cəlb etməkdən ibarətdir və həmin sahibkarların bir sıra hallarda hüquqi anlayışlarla bağlı məlumatlılığı yüksək olmur. Ona görə təklif etmək istərdim ki, 1-ci maddə "Süni torpaq sahəsi anlayışı" kimi deyil, "Əsas anlayışlar" kimi verilsin və həmin maddə daxilində yalnız süni torpaq anlayışının deyil, digər istifadə olunan anlayışların da izahları təqdim olunsun.

Eyni zamanda, təklif etmək istərdim ki, 2-ci maddə, bütövlükdə, qanunun məqsədlərini əhatə etsin. Çünki qanun layihəsi qeyd olunduğu kimi, kifayət qədər vacibdir, burada həm iqtisadi, həm hüquqi, həm də ekoloji məqsədlər var və bu məqsədlərin ayrıca olaraq göstərilməsi əsas və spesifik məqsədlər kimi qruplaşdırılması məqsədə-

uyğun olardı. Çünki nəzərə alsaq ki, bu qanun həm də xarici investorların istifadə edəcəyi və sərmayə baxımından müraciət edəcəyi qanunlardan biri olacaq. Ona görə təklif etmək istərdim ki, yəni 2-ci maddə dəyişdirilsin və "Qanunun məqsəd və vəzifələri" kimi təqdim olunsun. Eyni zamanda, bütövlükdə, 3.1-ci maddədə mətnin dəyişilməsini təklif etmək istəyirəm. Çünki bu 3.1-ci maddə, bütövlükdə, hər hansı bir məhdudiyyət müəyyənləşdirmir. Yəni burada həm sahildə, həm də sahilə bitişik torpaq sahələrinin yaradılması mümkündür. Məncə, bu mətnə baxılıb yenidən işlənməsi məqsədəuyğun olardı. Çünki praktik olaraq bu o deməkdir ki, süni torpaq sahəsi sahilə bitişik də yaradıla bilər, sahildən kənarda da yaradıla bilər. Daha konkretləşdirilməsi vacibdir.

3.2-ci maddədə qeyd olunur ki, xüsusən də dənizdə nəqliyyata təhlükə yaradan yerlərdə torpaq sahələrinin yaradılması qadağandır. Amma bunun da daha detallı olaraq müəyyənləşdirilməsinə və digər qanunvericilik aktları, o cümlədən məcəllə ilə əlaqənin müəyyənləşdirilməsinə ehtiyac var. Çünki quru sahədə nəqliyyatın hərəkətini izləmək mümkündür. Amma dənizdə nəqliyyatın hərəkəti artıq nisbi xarakter daşıyır. Ona görə burada ayrıca bir sənədin və ya xəritənin əlavə olunmasına ehtiyac var.

4.3.2-ci maddədə də oxşar məsələdir – ayrıca bir xəritənin və ya sənədin əlavə olunmasına ehtiyac var. Çünki ətraf mühitinə təsirin qiymətləndirilməsi ümumi xarakter daşıyır. İş adamı ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənəd təqdim edən zaman hökmən hansı isə bir sənədə və ya digər təsdiq olunmuş qaydalara əsaslanmalıdır ki, burada subyektiv yanaşma olmasın.

Eləcə də 6.1.2-ci maddədə süni torpaq sahəsinin sayı göstərilir. Amma nəzərə alsaq, 6-cı maddə süni torpaq

sahələrinin deyil, sahəsinin yaradılması ilə bağlıdır, ona görə mən təklif edərdim ki, "sayı" sözü çıxarılsın və hər bir süni torpaq sahəsi ilə bağlı ayrıca qiymətləndirmə təqdim olunsun və ayrıca bir prosedur olsun. Amma burada sayının göstərilməsi ondan xəbər verir ki, bir və birdən artıq ola bilər.

6.1.4-cü maddədə mülkiyyət növü göstərilmir. Düzdür, 8.3-cü maddədə bu qeyd olunur. Amma 6.1.4-cü maddədə mülkiyyət növünün qeyd olunması məqsədəuyğun olardı. 6.2-ci maddədə 6 il düşünürəm ki, qısa müddətdir. Çünki süni torpaq sahəsinin istifadəsi zaman tələb edir. Ona baxılması və artırılması məqsədəuyğun olardı ki, daha çox sərmayə cəlb olunsun.

Mən vaxtı çox almaq istəmirəm, sadəcə, 9-cu maddə ilə bağlı təklif etmək istərdim ki, burada icarə qiymətinin müəyyənləşdirilməsindən söhbət gedir. Bunun da daha detallı verilməsinə və meyarlarının müəyyənləşdirilməsinə ehtiyac var. Çünki qanun layihəsi elementar dəyəri müəyyələşdirmir. Ona görə də 9-cu maddəyə baxıb, yenidən işlənməsi və burada bazar, yoxsa inventar qiymətinin nəzərə alınmasının qeyd olunması məqsədəuyğun olardı. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli sədr, Sizin tövsiyənizlə, Əli müəllimin moderatorluğu ilə birinci oxunuşdan sonra biz toplandıq və komitədə də geniş müzakirə etmişdik. Yenə də qanun layihəsini geniş müzakirə etdik. Buna görə təşəkkür edirəm.

Amma ikinci oxunuşda bəzi məsələləri səsləndirməyi vacib sayıram. Mən hesab edirəm ki, ilk öncə Siyavuş müəllimin dediyinə münasibət bildirim. Burada Torpaq

Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci hissəsinin sahilboyu zolaqda tikinti ilə əlaqədar tələblərinin bu qanunla tətbiq edilmədiyi qeyd olunub. Yəni, Siyavuş müəllim, qanunda bu nəzərdə tutulub, buna görə narahatlıq yoxdur.

Mənim söyləyəcəyim bundan ibarətdir ki, bu, meqa layihədir və biz burada təcrübədən çıxış etməliyik. Bilirik ki, Qaradağ rayonunda belə bir layihə ilə bağlı dövlət bankından da bir milyarddan artıq vəsait götürüldü və o vəsait faktiki olaraq dağıdıldı. İndi də həmin o yarımçıq tikili orada göz dağı kimi qalıb. Ona görə də belə meqa layihələr üçün süni torpaq sahəsi yaradılır. Hesab edirəm, sonra onun üzərində tikinti işləri aparılacaq.

4.3-cü maddədə qeyd olunur ki, süni torpaq sahəsi yaratmaq üçün hansı sənədlər təqdim olunmalıdır. O sənədlərin sırasına müraciət edən şəxs özünün maliyyə durumu barədə arayış və tikintinin smeta xərcləri barədə məlumat daxil etməlidir. Bu bir. İkincisi, bank zəmanəti olmalıdır. Hesab edirəm ki, bu bank dövlət bankı ola bilməz. Ona görə ki, gələcəkdə biz dövlət bankını özəlləşdirməyə də çıxara bilərik və o zaman özəl kommersiya bankının rəhbəri, ümumiyyətlə, o öhdəliklərdən imtina da edə bilər. Tutaq ki, deyər, bu, avantürist bir layihədir. Mən niyə bu layihəni maliyyələşdirməliyəm?! Ona görə də dövlətin payı olan bankların və fondların bu cür layihələri maliyyələşdirməsinə qanunvericiliklə qadağa qoyulmalıdır.

Hesab edirəm, burada bu sənədlər təqdim olunandan sonra artıq müəyyən ekspertiza işlərinin aparılması üçün müvafiq icra hakimiyyəti orqanının ilkin razılığı olmalıdır. Bu razılıq da ona görə lazımdır ki, qeyd etdiyim kimi, həmin fiziki, yaxud hüquqi şəxsin müvafiq dövlət orqanlarına müraciət etmək üçün əlində hansı isə sənəd olsun. Yoxsa özü gedib deyə bilməz ki, dövlətin istənilən

bir ərazisində, – dəniz suları da dövlətin ərazisidir, – gəl, burada mənim üçün ekspertiza keçir. Yəni mən hesab edirəm, burada məntiq də yoxdur.

Bir də mənim fikrimcə, niyə bu maliyyə sənədləri, smeta xərcləri təqdim olunmalıdır? Baxın, indi biz bundan sonra "Tütün və tütün məmulatı haqqında" Qanunda dəyişikliklər edəcəyik. Orada qeyd edirik ki, 34 milyon manatdan az olmayan məbləğdə investisiya yatıran şəxsə biz hər hansı tütün məmulatı istehsal edən müəssisə açmağa icazə veririk. Əslində, bu, inhisarçılıq yaratmaq deməkdir. Bəlkə, mən elə 5 milyonluq bir fabrik tikəcəyəm. Amma görürsünüz, burada qanunda onu tələb edirik, 34 milyonluq. Biri tütün fabriki tikir, deyirik ki, sən 34 milyondan az vəsait qoya bilməzsən. Amma o böyüklükdə süni ada yaradırıq və onun üzərində də bəlkə də dəyəri milyardlarla olan bir tikinti obyekti tikiləcək. Mən komitə iclasında da dedim, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin məsul şəxslərinə də dedim. Nə isə onlar bu məsələyə çox da belə diqqətlə yanaşmadılar. Ona görə mən bu məsələni burada bir daha qaldırmağı borc bildim.

Bundan başqa, niyə mən hesab edirəm ki, həm də dövlət bankları bu işlərdə iştirak etməməlidirlər? Ümumiyyətlə, dövlət banklarının özəlləşdirmə məsələsi də gündəmdədir. Bizim Konstitusiyanın 59-cu maddəsi "Azad sahibkarlıq hüququ" adlanır. Biz Konstitusiyanın həmin maddəsində 2006-cı il oktyabrın 11-də dəyişiklik etdik və həmin dəyişiklikdə qeyd olunur ki, "dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir". Yəni dövlət sahibkarlıq fəaliyyəti ilə məşğul olmamalıdır. Ona görə də, mən hesab edirəm ki,

burada mütləq o qeyd etdiyim məsələ öz əksini tapmalıdır.

Bir də 8.3-cü maddə ilə bağlı təklifim ondan ibarətdir ki, burada qeyd olunur, süni torpaq sahəsi yaradılandan sonra o, dövlətin mülkiyyətinə keçir. Bu, süni yaradılır, yəni mən öz vəsaitim hesabına süni torpaq sahəsi yaradıram, ada yaradıram. Burada məntiq haradadır ki, mənim yaratdığımı sonra dövlət deyir, sən onu mənim mülkiyyətimə verməlisən? Bu baxımdan bu müddəa da buradan...

**Sədrlik edən.** Sağ olun. Nurlan Həsənov. Nurlan müəllim, suallar var idi. Siyavuş müəllimin bir sualı var idi. Bir suala Qüdrət müəllim aydınlıq gətirdi. Xahiş edirəm, bu biri suallara dair fikriniz varsa, ifadə edin.

**N.Həsənov**. Hörmətli Sahibə xanım, bəli, həmkarlarımız tərəfindən müxtəlif suallar səsləndirildi. Birinci, hörmətli Siyavuş müəllimin qeyd etdiyi məsələ ilə bağlı, bəli, Qüdrət müəllim də bildirdi. Bizdə Torpaq Məcəlləsində sahilboyu zolağın üzərində yerləşən torpaqların özəlləşdirilməsi ilə bağlı məhdudiyyətlər var. Lakin təqdim olunan layihədə 8.4.3-cü maddədə bununla bağlı bir istisna qeyd olunur. Yəni əgər yaradılması nəzərdə tutulan süni torpaq sahəsi sahilboyu zolağa bitişikdirsə, əlbəttə ki, bu zaman sahilboyu zolağa müdaxilə etmədən o süni torpaq sahəsinin yaradılması mümkün deyil. Məhz bu səbəbdən də qanunvericilikdə bu qadağa istisna olunur.

Hörmətli Siyavuş müəllimin ikinci sualı hərbi məsələlər, hərbi məqsədlər üçün süni torpaq sahəsinin yaradılması ilə bağlı idi. Bəli, dünya təcrübəsində bu var, lakin biz bu qanun layihəsinin mahiyyətindən də gördüyümüz kimi, qanun layihəsi daha çox iqtisadi xarakterlidir, ölkədə turizmin daha da gücləndirilməsi hədəfini daşıyır. Bu məsələ ilə bağlı, eyni zamanda, bildirim ki, Xəzərin

hüquqi statusu haqqında bir sənəd var. Azərbaycan buna, düzgün xatırlayıramsa, 2019-cu ildən qoşulmuşdur.

Üçüncü məsələ xarici investorlarla bağlıdır. Məlumat üçün bildirim ki, Tahir müəllim bu sualı cavablandırar, lakin "İnvestisiya fəaliyyəti haqqında" Qanun var və biz burada həmin qanunvericiliyin də tələblərini nəzərə alırıq. Eyni zamanda, əlbəttə ki, həm turizmin inkişafı, həm də iqtisadi inkişaf üçün xarici investorların buraya cəlb olunması hədəfdir.

Vüqar müəllim müxtəlif suallar səsləndirdi. Anlayışlarla bağlı məlumat üçün bildirim ki, bu qanun layihəsində qeyd olunan anlayışlar digər əlaqəli qanunvericilik aktlarında onsuz da mövcuddur və burada, əsasən, "süni torpaq sahəsi" anlayışı ilk dəfə olaraq qanunvericiliyimizə daxil edilir. Qanunvericlik aktlarında təkrarçılığa yol verməmək baxımından məhz o qədər də məqsədəuyğun deyil. Qanunun məqsədi barədə hörmətli Vüqar müəllimin səsləndirdiyi məsələlərlə əlaqədar qeyd edim ki, bu qanun layihəsinin süni torpaq sahəsinin yaradılması ilə bağlı məqsədləri qanun layihəsinin preambulasında geniş şəkildə izah olunur. Mən həm birinci oxunuşda, həm də ikinci oxunuşda da öz çıxışımda qeyd etdiyim kimi, burada məqsəd sırf süni torpaq sahəsinin yaradılmasıdır. Bununla bağlı əlaqəli digər məsələlər – istər ətraf mühit, istərsə də tikintisinin xüsusiyyətləri ilə bağlı olsun, bu məsələlər əlaqəli qanunvericilik aktları ilə tənzimlənir.

Digər məsələ, Vüqar müəllim tərəfindən dəniz üzgüçülüyünün təhlükəsizliyi ilə bağlı xüsusi bir sual oldu. Bununla bağlı məsələlər "Dəniz limanları haqqında" Qanunda mövcuddur. Əgər biz həmin qanuna baxsaq, bununla bağlı məlumatları əldə edə bilərik. Təhlükəsizliklə bağlı ətraf mühitə təsirin qiymətləndirilməsi ilə əlaqədar bizim dünən

birgə iclasımızda da fikirlər səsləndirildi. Xüsusi ilə bir daha qeyd etmək istəyirəm ki, bu qanun layihəsi qəbul edilərkən dövlət üçün prioritet məsələ burada ətraf mühitin qorunması, ekoloji təhlükəsizliyin nəzərə alınmasıdır və prosesin başlanğıcından sonuna qədər dövlətin burada müdaxilə imkanları mövcuddur. Xəzər dənizində süni torpaq sahəsinin yaradılması ilə bağlı hər hansı bir layihə təqdim olunarkən əgər dövlət orqanları tərəfindən aşkar edilsə ki, bununla bağlı ətraf mühitə hər hansı bir neqativ təsir ola bilər, əlbəttə, bu layihənin icra olunması mümkün olmayacaq. Müddətlə bağlı məsələlər Şəhərsalma və Tikinti Məcəlləmizin tələblərinə uyğunlaşdırılmışdır.

Səhv etmirəmsə, hörmətli Vüqar müəllimin 6.2-ci maddə ilə bağlı, – burada müddət məsələsi, əsasən, öz əksini tapır, – qeydi oldu. Burada 6 il müddət onun üçün nəzərdə tutulmuşdur ki, layihədən də göründüyü kimi, sırf 6 il ərzində icarə məbləğinin ödənilməsi nəzərdə tutulur. Bundan sonra, yaradılması nəzərdə tutulan süni torpaq sahəsi üzərində tikinti obyektləri istismara verildikdən sonra mülkiyyət hüququ yarandığı üçün artıq hər hansı bir icarə haqqının ödənilməsi nəzərdə tutulmur.

Hörmətli Qüdrət müəllimin oxşar sualları bizim dünən keçirilən iclasda da səsləndi. Bir daha burada qeyd etmək istəyirəm ki, biz bu qanun layihəsini qəbul etməklə onsuz da investorlar üçün müəyyən məhdudiyyətlər yaradırıq. Lakin biz, eyni zamanda, nəzərə almalıyıq ki, investorlar üçün aşılması mümkün olmayan məhdudiyyətlər də yaratmaq istəmirik. Burada, eyni zamanda, az öncə də qeyd etdiyim kimi, biz investisiya fəaliyyətinin hüquqi və iqtisadi əsaslarını nəzərə almalıyıq. Digər tərəfdən, bu kimi məhdudiyyətlər ölkəmizin "Doing Business" sıralamasındakı reytinqinə də mənfi təsir göstərir. Bu

baxımdan layihədə onsuz da mümkün risklərin nəzərə alınmasını göz önünə gətirərək hər hansı bir maliyyə təminatının tələb olunması məqsədəmüvafiq deyil.

Mümkün qədər bu sualları cavablandırmağa çalışdım. Açıq qalan məsələlər varsa, həmkarlarımla müzakirə edə bilərik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, bunu işçi qaydada edə bilərsiniz. Tahir müəllim, sözünüz var? Buyurun. Tahir Mirkişili.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Xanım sədr, mən hörmətli Siyavuş müəllimin, eyni zamanda, Qüdrət müəllimin qaldırdığı iki məsələyə münasibət bildirmək istəyirəm.

Birincisi, Siyavuş müəllim iqtisadi güzəştlərlə bağlı sual vermişdi. Mən qeyd etmək istərdim ki, təqdim olunan qanun layihəsi yaradılacaq süni adanın üzərindəki iqtisadi fəaliyyəti tənzimləmək üçün hazırlanmamışdır. Bu qanun layihəsi yalnız süni adanın inşası üçün yaranmış münasibətləri tənzimləyir. O baxımdan adi bir infrastruktur layihəsinin icrası kimi layihədir. Yəni necə ki, yol çəkilir, hər hansı bir sahibkar bir otel inşa edir, bu da oxşar bir formadadır. Ona görə mən düşünürəm ki, Siyavuş müəllim dediyi məsələdə haqlıdır. Amma o məsələ daha çox adanın üzərində həyata keçiriləcək iqtisadi fəaliyyətlə bağlı tətbiq oluna bilər. Burada sahibkar gələcəkdə müəyyən vergilərdən azad oluna bilər və yaxud oraya yeni sahibkarlıq subyektləri cəlb etmək üçün hər hansı güzəştlər tətbiq edilə bilər.

İkinci məsələ, hörmətli Qüdrət müəllimin dediyi mülkiyyət məsələsi ilə bağlıdır. Ümumiyyətlə, Torpaq Məcəlləsinə görə su fondu torpaqları dövlət mülkiyyətindədir. O, özəlləşdirilə bilməz, eyni zamanda, başqa

mülkiyyətə keçirilə bilməz. Süni adalar da su fondu torpaqları üzərində yarandığı üçün məntiqi olaraq o da, təbii ki, dövlət mülkiyyətində olmalıdır.

Ümumiyyətlə, dünyada bütün ölkələrdə su fondu torpaqları və yaxud bu cür süni adalar heç zaman özəlləşdirilmir. Hətta dünyanın bir çox ölkələrində kommersiya obyektlərinin belə dövlət mülkiyyətindən özəl mülkiyyətə keçməsinə icazə vermirlər.

İkinci tərəfdən, sahibkarlıq, iqtisadi mahiyyət tərəfindən baxanda isə, ümumiyyətlə, torpağın istifadəsinə icazə, bildiyiniz kimi, üzərindəki obyektlərin inşası ilə bir yerdə verilən icazədir. Belə bir halda torpağın sahibkarın mülkiyyətində olması onun üçün əlavə xərc deməkdir. Sahibkarı maraqlandıran əsas məsələ torpağın üzərində yaradılan mülkiyyətin əmlak məsələsi formasında tənzimlənməsidir ki, qanuna görə də bu süni torpaqlar üzərində inşa edilən hər hansı bir əmlak üçün sahibkara mülkiyyət hüququnu təsdiq edən sənəd veriləcək. İqtisadi cəhətdən biz bunu doğru sayırıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, səsverməyə keçirik. Bu qanun layihəsində 4 fəsil var, 10 maddədən ibarətdir. Mən qanun layihəsini fəsil-fəsil səsə qoyacağam. Buyurun, indi preambula və I fəsilə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
II fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
III fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
IV fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 11 məsələmiz qalır və onların hamısı da birinci oxunuşda olan qanun layihələridir. Növbəti 3 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır.

8-ci məsələ "Tütün və tütün məmulatı haqqında" Qanunda, gündəliyin 9-cu məsələsi "Qida təhlükəsizliyi haqqında" Qanunda, gündəliyin 10-cu məsələsi Vergi və Gömrük məcəllələrində və 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, mən yenə də təklif edirəm ki, bütün təqdimatları biz bir yerdə keçirək, müzakirəni də birgə aparaq, ancaq səsverməni həmişə olduğu kimi ayrılıqda keçirək.

İndi isə qeyd edim ki, qanun layihələrinə 2 komitədə baxılıb – Aqrar siyasət komitəsində və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində. Mən əvvəlcə Aqrar siyasət komitəsinin sədrinə, Tahir müəllimə söz verirəm. Tahir müəllim, mən Sizdən xahiş edəcəyəm ki, 8-ci və 9-cu

məsələlərə dair məlumat verin, 10-cu məsələ haqqında komitənin rəyini bildirin. Xahiş edirəm, buyurun.

**T.Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputatlar. “Tütün və tütün məmulatı haqqında”, “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının qanunlarında edilən dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin tütün məmulatlarının və alkoqollu içkilərin idxalı və istehsalı sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında 2023-cü il 7 fevral tarixli Sərəncamın tələblərini özündə ehtiva edir.

Bu qanunlarda edilmiş dəyişikliklər bilavasitə əhalinin sağlamlığının müdafiəsinin təmin edilməsinə, sanitariya-gigiyena normalarına əməl olunmasına, sahibkarlıq subyektlərinin maraqlarının qorunmasına, istehsalın və dövriyyənin tənzimlənməsinə, vergidən yayınma hallarının və qeyri-qanuni istehsalın qarşısının alınmasına yönəlmişdir.

Dəyişikliklər həm mövcud sahədə rəqabətə dözümlü investisiya mühitinin formalaşmasına, istehsal olunmuş məhsulların ixrac potensialının artırılmasına, həm də yerli xammaldan istifadə perspektivlərinin genişlənməsinə imkan yaradacaqdır.

Tütün məmulatlarının istehsalının və idxalının həyata keçirilməsi fəaliyyətinə görə icazə sisteminin tətbiq edilməsi, istehsal və idxal sahəsində sahibkarlıq subyektlərinin qeydiyyata alınması və reyestrinin aparılması cəmiyyətin maraqlarının, əhalinin sağlamlığının təmin olunmasına və sui-istifadə hallarının qarşısının alınmasına yönəlmişdir.

Belə ki, ölkə ərazisində istehsal olunan bir sıra tütün məmulatları sanitariya-gigiyena normalarına uyğun gəlmir. Bazarda mənşəyi məlum olmayan, aşağı keyfiyyətli mallar satılır. Bu da əhalinin sağlamlığına təhlükə yaradır

və vergidən yayınma hallarına imkan verir. İcazə sisteminin tətbiqi bu halların aradan qaldırılmasına, sahibkarlıq subyektlərinin maraqlarının müdafiəsinə, daxili bazarın aşağı keyfiyyətli məhsullardan qorunmasına xidmət edir.

Burada Qüdrət müəllim bir məsələyə toxundu. Əlbəttə ki, deputat həmkarlarımızı da maraqlandıracaq. Bu, tütün məmulatlarının istehsalı sahəsi də fəaliyyət göstərmək istəyən subyektlərin dövlət qeydiyyatına alınması zamanı avadanlıqlara dair 34 milyon manat minimum investisiyanın müəyyən edilməsi məsələsidir. Sözsüz ki, bizim müzakirələrdə İqtisadiyyat Nazirliyinin nümayəndələri də iştirak etdilər. Əsaslandırdılar ki, 34 milyon manat, əsasən, avadanlıqlara əsaslanan istehsal xətlərinin çəkilməsi ilə əlaqədardır. Dünya bazarında siqaret istehsalı ilə məşğul olan istehsalçıların belə xərci üçün hər xəttin çəkilməsinə 10 milyon ABŞ dollarının hesablanması müəyyən olunur. Sözsüz ki, bizim pulla da bu, 34 milyon manat edir. Ona görə dedilər ki, belə xətlərin quraşdırılmasına 34 milyon manat investisiya məbləğinin müəyyən edilməsi qanunauyğundur.

Burada bildirildi ki, 5 milyon da, 3 milyon da ola bilər. Ancaq belə avadanlıqların quraşdırılması, sözsüz ki, keyfiyyətli məhsul istehsalına zəmin yaradır. Ona görə də müasir texnologiyaların tətbiqi çox vacibdir.

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər isə alkoqollu içkilərin idxalı və istehsalı ilə bağlı icazə sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Məqsəd istehsalın və dövriyyənin tənzimlənməsi, vergidən yayınma hallarının qarşısının alınması və bilavasitə insanların sağlamlığının qorunmasıdır.

Layihədə alkoqollu içki sayılan arağın illik minimum istehsal həcmi 100 min dekalitr olaraq müəyyən edilsə də, layihənin keçid müddəalarında illik minimum istehsal həcminin bu həddə 2032-ci il yanvarın 1-dək mərhələli şəkildə çatdırılması nəzərdə tutulur. 2024–2025-ci illər üzrə illik minimum istehsalın həcmi 20 min dekalitr olaraq müəyyənləşdirilir ki, bu da hesablanmalara əsaslanmışdır.

Deputat həmkarlarımdan hər iki qanun layihəsinə münasibət bildirmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Layihələrə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Tahir müəllim, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, hörmətli həmkarım Tahir müəllim 3 qanun layihəsi barədə geniş məlumat verdi. Bizim 10-cu məsələdə 4 qanunda dəyişikliyi müzakirə etdiyimiz əsas məsələlər də məhz 8-ci və 9-cu məsələlərdə olan qanunlarda edilən dəyişikliklərdən irəli gəlir.

Hörmətli xanım sədr, təqdimatdan əvvəl bir məsələyə münasibət bildirim. Bayaq burada 34 milyon manatla bağlı deyildi. Ümumiyyətlə, tütün istehsalçılarına keyfiyyəti qaldırmaq üçün 2 cür şərtin qoyulması praktikası var. Birinci, siqaretin istehsalının həcminə görə. Tutaq ki, Türkiyədə 2 milyard ədəd siqaret istehsal edən təşkilata və yaxud sahibkara icazə verirlər. 2 milyarddan yuxarı.

Bizim 2 yolumuz var – ya siqaret sayını, ya da investisiyanın həcmini seçmək. Amma biz ölkədə çox siqaret istehsal olunmasını arzu etmirik. Hesab edirik ki, bu, ziyanlı bir addım olar. Ona görə də biz qanun layihəsində siqaret sayına görə deyil, daha çox investisiya həcminə görə şərt qoymuşuq ki, investisiya həcmi keyfiyyətə

uyğun olmalıdır. Amma siqaretin istehsal həcminə motivasiya etməməliyik. O, daha çox sağlamlığa zərər verən bir sahə olduğuna görə biz bu şərti seçmişik.

Qanun layihələri ilə bağlı demək istərdim ki, hörmətli həmkarlar, mən 4 qanun layihəsində dəyişikliyi təqdim edirəm. Bunlar Gömrük Məcəlləsi, Vergi Məcəlləsi, "Dövlət rüsumu haqqında" Qanun, "Lisenziyalar və icazələr haqqında" Qanundur.

Vergi Məcəlləsində edilən dəyişikliyə görə, bildiyiniz kimi, verginin operativ nəzarət funksiyası var. Məcəllədə edilən dəyişikliyə görə məhz "Tütün və tütün məmulatı haqqında" Qanuna görə qeydiyyat şərtlərinin pozulması hallarını aşkar etmək həm də vergi orqanlarının operativ nəzarət hüquqlarının siyahısına daxil edilir. Yəni vergi orqanları bundan sonra bu şərtlərin yerinə yetirilməsinə nəzarət edəcəkdir.

Gömrük Məcəlləsində edilən dəyişikliyə görə gömrük orqanlarına yeni bir hüquq verilir. Bu hüquqa görə, dövlət sərhədinin buraxılış məntəqələrində idxal zamanı istehsalçı və idxalçılardan "Tütün və tütün məmulatı haqqında" Qanuna uyğun olaraq, dövlət reyestrinin çıxarışı tələb olunacaqdır. Məhz bu çıxarışın tələb olunması dövlət gömrük orqanlarının hüquqlarının biri kimi müəyyən olunmuşdur.

"Dövlət rüsumu haqqında" Qanunda edilən dəyişikliyə görə, tütün və tütün məmulatlarını idxal və istehsal edən sahibkarlar üçün dövlət reyestrindən çıxarışın qiyməti, yəni rüsumun həcmi 150 manat müəyyən olunmuşdur. 150 manat bundan sonra çıxarış alınması üçün birdəfəlik istifadə olunan rüsum olacaqdır.

"Lisenziyalar və icazələr haqqında" Qanunda edilən dəyişikliyə görə isə, hörmətli həmkarlar, bildiyiniz kimi,

2006-cı ildə yeni qəbul olunmuş "İcazələr və lisenziyalar haqqında" Qanuna görə ölkədə lisenziya və xüsusi icazə tələb olunan sahibkarlıq subyektlərində geniş miqyasda liberallaşmaya gedilmişdir. Məhz o zaman tütün, alkoqol, eyni zamanda, araq istehsalı məsələləri lisenziyanın ilk 3 nömrəli əlavəsindən çıxarılmışdır. Onlar üçün hər hansı xüsusi icazə tələb olunmurdu. Amma keçən dövr ərzində, hörmətli Tahir müəllim dedi, bu istiqamətlərdə bəzi sahibkarların bəzən qeyri-qanuni, bəzən isə tamamilə insanların təhlükəsizliyinə zidd fəaliyyət həyata keçirmələri bu sahədə nəzarətin güclənməsini tələb etmişdir. Ona görə də qanunun 3 nömrəli əlavəsinə tütün və tütün məmulatlarının idxalını, istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin reyestrdən çıxarışı icazələrin siyahısına əlavə olunmuşdur.

Hesab edirik ki, bax, bu qeyd etdiyimiz qanun layihələri ölkədə alkoqol və tütün sahəsində nəzarətin sərtləşməsi ilə yanaşı, keyfiyyətin artırılması, əhalinin qida təhlükəsizliyinin qorunması və iqtisadi subyektlərin haqlı rəqabətinin həyata keçirilməsi üçün vacib şərtlər yaradacaqdır.

Qanun layihələrinə bizim komitənin rəyi müsbətdir. Həmkarlarımdan dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Müzakirələrə keçirik. Yazılanlar var. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. "Tütün və tütün məmulatı haqqında" Qanunda edilən dəyişiklik məni müsbət mənada xeyli təəccübləndirdi. Ümid edirəm ki, bu dəyişiklik kağız üzərində qalmayacaq.

Narahatlığım ona görədir ki, tütünlə bağlı Milli Məclisin qəbul etdiyi qərarların tam icrası həyata keçirilmir. Məsələn, tütünlə və açıq yerlərdə istifadəsi ilə bağlı qaydalar var. Lazımi dəyişikliklər edilib. Amma yenə də

bağlı məkanlarda tütündən boğuluruq. Papiros çəkənlərin hüquqlarına hörmətlə yanaşıram və papiros çəkib-çəkməmək fərdin azadlığıdır. Amma təyin edilməyən yerlərdə çəkmək, məsələn, şadlıq evlərində yemək masaları arxasında papiros çəkmək nə deməkdir və bunu qadağan etməmək və ya buna icazə vermək nə deməkdir?

Yəqin ki, tütün və alkoqollu içkilər rəqabətin çox güclü olduğu sahədir. Niyə? Çox zaman qanun da o sahədə lazım olduğu qədər nizam-intizam yarada bilmir. Eyni zamanda, bərabərlik yarada bilmir. Sevinirəm ki, bu dəyişikliyin həyata keçirilməsinə nəzarət olunarsa, kənd təsərrüfatında məşğulluğun artmasında rol oynayacaq. Çox istərdim ki, bu sahədə daha ciddi nəzarət mexanizmi olsun. Amma olacaqmı?

Tütünlə bağlı daha bir məsələ. Tütün fabrikləri, müəssisələri özəlləşdirildiyi zaman orada işləyən kollektiv də müəyyən paylara malik olur. Yalnız bu deyil, müxtəlif sahələrə malik müəssisələr də özəlləşdirilən zaman kollektivlər səhmdarlara çevrilib. Amma onların, demək olar ki, böyük hissəsi divident ala bilməyib. Səhmdar vətəndaşlara qarşı ədalətsizlik həyata keçirilir və keçirilməkdədir. Onlar müxtəlif yollarla vətəndaşları qanuni hüquqlarından məhrum etməyə çalışırlar. Onların bu günə qədər müraciət etdikləri ən yüksək dövlət qurumları belə onilliklər ərzində onlara köməklik etməyib və onlar da şikayətlərini davam etdirirlər və bu gün də davam etdirməkdədirlər.

"European Tabacco–Baku" şirkətinin səhmdarları mənim də qəbulumda olublar. Ultimatumla məndən tələb edirlər ki, məsələni həll edim. Dedim ki, heç olmasa, yenidən rəsmi müraciət edin, aidiyyəti üzrə göndərim. Əvvəllər müraciət etmişdilər. Deyirlər ki, nə qədər məktub

yazmaq olar, nə qədər aidiyyəti üzrə göndərmək olar? Başa düşürəm onları. Onlara dedim, 20 ildir ki, döymədiyiniz qapı qalmayıb. İndi qəbulunda olduğunuz onlarca ən yüksək çinli, səlahiyyətli məmurların həll edə bilmədiklərini mən – Milli Məclisin sıravi deputatı necə həll edim?

Bunu ona görə deyirəm ki, bu sahədə ciddi hüquq pozuntuları və vətəndaşlara məxsus səhmlərin mənimsənilməsi və müxtəlif vasitələrlə onların süründürülməsi baş verir. Bu məsələyə nöqtə qoyulmalıdır. Hüquq pozuntuları ilə insanları affekt vəziyyətə salmaq olmaz. Onlar mənim köməkçimə zəng edib, onu ağır sözlərlə təhqir də ediblər. Hətta, xanım sədr, Sizə köməkçimdən şikayət də ünvanlanıb. Mənim tütünə və tütün biznesinə nə aidiyyətim var? Arada mən hücum və təzyiqlərə məruz qalıram. Amma mən yenə də deyirəm ki, o vətəndaşları günahlandırmıram. Bunu təbii qəbul edirəm. Onlar 20 il ərzində çarəsiz vəziyyətə düşməklə bərabər, həm də psixoloji travma alıblar. Mən düşünürəm ki, bu məsələ ilə bağlı bir həll yolu göstərilməlidir. Bu məsələnin bir həlli yolu olmalıdır. Mənim, sadəcə, o vətəndaşlara, doğrudan da, yazığım gəlir. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli Tahir Mirkişili növbəti dəfə mənə uğursuz cavab verməyə cəhd etdi. Hörmətli Tahir müəllim, bir çox ölkələrdə adalar satışa çıxarılır, təbii adalar, nəinki süni, kiminsə yaratdığı adalar. Bir dəfə mən İtaliyada idim, Neapol şəhərində ada göstərdilər, dedilər o adanı bir nəfər alıb, o adada cəmi 1 dənə özü üçün ev tikib. Yəni hesab edirəm, beynəlxalq təcrübəyə istinad edirsinizsə, beynəlxalq təcrübəni diqqətlə öyrənmək lazımdır.

Hörmətli sədr, hesab edirəm ki, “Tütün və tütün məmulatı haqqında” Qanunda bu sahədə inhisarçılığın yaradılması məqsədi ilə dəyişikliklər edilir. Doğrudan da, tütün insan orqanizmi üçün ziyanlıdırsa, bunun üçün vergiləri artırmaq lazımdır, alkoqol üçün vergiləri artırmaq lazımdır. Baxın, biz alkoqolla bağlı bunu etmirik. Əslində, gördünüz də, alkoqolun həcminin artırılması ilə bağlı indi qanunda dəyişiklik edirik. Baxmayaraq ki, müsəlman ölkəsiyik, bizim hətta dinimizdə tütün haram buyurulmasa da, alkoqol həm haram buyrulub, həm də alkoqol insan orqanizmi üçün tütündən az ziyanlı deyil. Bu baxımdan, hesab edirəm, yəni bunu əsaslandırmaq ki, guya biz insanlarımızı qorumaq üçün bunu edirik, bu, tamamilə yalnışdır.

Bizdə Konstitusiyanın 149-cu maddəsi var. Bərabər mənafelərə bərabər münasibət. Mən dedim, indi kimsə süni torpaq sahəsi yaradır, ada yaradır, biz ona demirik ki, sən bura nə qədər investisiya qoymalısan. Amma burada deyirik ki, 34 milyon. Bəlkə kimsə tütün istehsal edəcək, həm də keyfiyyətli tütün istehsal edəcək. Vətəndaşların qorunmasının bura nə aidiyyəti var? O, 5 milyonluq bir fabrik tikir, amma orada tütün istehsal edəcək. Hesab edirəm və bir daha söyləyirəm, bu, inhisarçılığın yaranmasına xidmət edən bir məsələdir və bunun təsdiqi üçün bir dənə də nümunə göstərim.

Bu qanunun 14.2-1.1-ci maddəsi. “Azərbaycan Respublikasının ərazisində azı 1 (bir) il olmaqla tütün məmulatının istehsalı fəaliyyətinin həyata keçirilməsi” imkan verəcək ki, həmin şəxsin istehsal etdiyi tütünün xaricə ixracına icazə verilsin. Dünyanın hər yerində təzə yaranan müəssisələri dövlət bəzən 3 il, bəzən 5 il, bəzən daha uzun müddətə ya vergilərdən azad edir, ya da onlara vergi

güzəşti nəzərdə tutur ki, o, çox pul qazansın. Həmin şirkət qoyduğu investisiyanı çıxarsın. Yəni bununla da biz investisiya qoyuluşunu stimullaşdırmış oluruq.

Amma burada, bu qanunda necə bərabər mənafedən söhbət gedə bilər ki, mən də başlamışam, zavodum işə düşüb, tütün istehsal edirəm, amma deyirlər, sən tütünü xaricə sata bilməzsən. Bunun üçün gərək 1 il tütün istehsal edəsən ki, sonra sənə bu icazəni verim.

Yəni qeyd etdiyim 14-cü maddə, həm də 10-cu maddənin 1-ci, 2-ci bəndi göstərir ki, faktiki surətdə biz qanunvericilik qaydasında bu sahədə inhisarçılıq yaratmaq istəyirik. Onsuz da bilirik ki, çox az sayda insanlar bu işlə məşğul ola bilirlər. Baxmayaraq ki, istəyənlər çoxdur. Amma bununla da biz o prosesin, ümumiyyətlə, qarşısını almış oluruq. Ona görə də mən bu qanunun əleyhinə səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Mən çıxışımda 9-cu məsələ – "Qida təhlükəsizliyi haqqında" Qanunda edilən dəyişikliklər barədə demək istəyirəm.

Məlumdur ki, alkoqollu içkilər bazarı dünyada ən rəqabətli bazarlardan biridir və bu istiqamətdə, təbii, biz də səylərimizi artırmalıyıq. Ona görə də bu qanunda edilən dəyişikliklər alkoqollu içkilər bazarında yaranmış vəziyyətin məntiqindən irəli gəlir. Bu nöqteyi-nəzərdən onun konsepsiyası da düzdür. Amma elə məqamlar var ki, burada nəticəlilik məsələsinə nail olmaqdan ötrü əlavə tədbirlərə də ehtiyac olacaq. Ona görə bu kontekstdən bəzi məsələləri qeyd eləmək istəyərdim.

"Qida təhlükəsizliyi haqqında" Qanunun qəbul edilməsi:

Birinci, alkoqollu içkilər sahəsində fəaliyyət göstərən peşəkar və intizamlı sahibkarlıq subyektlərinin maraqlarının müdafiəsinə nail olmağa imkan verəcək.

İkinci, daxili bazarın aşağı keyfiyyətli məhsullardan qorunmasına imkan verəcək.

Üçüncü, vergidən yayınma halları və qeyri-qanuni istehsalın qarşısının alınmasına imkan verəcək.

Dördüncü, istehsal edilən məhsulların ixrac potensialının artırılmasına imkan verəcək.

Bu, nəticəlilik nöqteyi-nəzərdən çox gözəldir. Amma bu qanunda nəzərdə tutulan məqamların yerinə yetirilməsi sadaladığım həmin 4 haldan yalnız birinə, yəni iri istehsalçıların maraqlarının reallaşmasına xidmət eləyəcək. Amma daxili bazarın keyfiyyətsiz mallardan xilas olması, ixrac potensialının artırılması kimi gözləntilərə nail olmaq üçün çox işlək bir reallaşma mexanizminin həyata keçirilməsi lazımdır. Bu nöqteyi-nəzərdən bir sıra suallar ortaya çıxır və həmin sualları səsləndirmək istəyərdim.

Birinci, Azərbaycanın alkoqollu içkilər bazarında yerli istehsalçıların payı nə qədərdir?

İkinci, alkoqollu içkilər bazarında iri müəssisələrin və kustar üsulla alkoqollu məhsul istehsal edənlərin payı nə qədərdir?

Üçüncü, alkoqollu içkilər bazarında kölgə iqtisadiyyatının payı nə qədərdir?

Dördüncü, istehsal edilən alkoqollu içkilərin nə qədərini ixrac edə bilirik? Bu, pandemiyaya qədər nə qədər idi? Ondan sonra nə qədərdir?

Burada bir sıra məqamlar var ki, bu dəyişikliklərin həyata keçirilməsi iri müəssisələr üçün xeyirli olacaq və iki məqam olacaq.

Birinci, nəzərə almaq lazımdır ki, 2016-cı ildə həyata

keçirilən tədbirlər nəticəsində kölgədə olan sexlərdə araq istehsal edən istehsalçılar leqallaşdı. İndi bax, müəyyən dərəcədə məhdudiyyətlərin qoyulması zamanı onların bir hissəsi bazara adaptasiya oluna biləcək, amma bir hissəsinin isə yenidən kölgə iqtisadiyyatını, o gizli zirzəmilərdə araq istehsalını davam etdirmək ehtimalı daha böyükdür. Buna görə də, hesab edirik ki, nəzərdə tutulan dəyişikliklərin həyata keçirilməsi ilə yanaşı, bir sıra məqamlar da nəzərə alınmalıdır.

Birinci, Rəqabət Məcəlləsinin qəbul edilməsi, bir tərəfdən, indiki bazarda olan haqsız rəqabətin aradan qaldırılmasına müsbət təsir göstərəcək.

İkinci isə, o iri araq istehsalçıları, alkoqollu içki istehsalçıları var, əgər onlar Rəqabət Məcəlləsinin tələblərinə cavab verəcəklərsə, həm istehsalı, həm də xaricə məhsul ixracını artıracaqlar. Yox, əgər onlar sövdələşmələrə və sair getsələr, qiymətlər artacaq və keyfiyyət aşağı düşəcək. İndi Azərbaycanda elə alkoqollu içki müəssisələri var ki, onlar Qərb bazarına çıxa bilirlər. Bu, zarafat deyil. Bir də təkrarlayıram ki, yüksək rəqabətli bazarda bu, çox böyük uğurdur. Həmin uğurları davam elətdirmək üçün bir tərəfdən, deməli, keyfiyyətsiz məhsulların bazardan çıxarılmasına nəzarət mexanizmi təkmilləşdirilməlidir, digər tərəfdən, burada çeviklik artırılmalıdır. Həm də qabaqlayıcı tədbirlərin artırılması istiqamətində işlər görülməlidir. Bir də o məhsul ixrac edən müəssisələrə əlavə dəstək vermək lazımdır ki, xarici bazarlara daha çox çıxa bilsinlər. Hesab edirəm ki, belə halda biz qoyduğumuz məqsədlərə daha dolğun şəkildə nail ola biləcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media təmsilçiləri. Tütün və tütün məmulatı haqqında təqdim edilmiş qanun layihəsi ilə tanışlıq mənə belə bir nəticəyə gəlməyə imkan verdi ki, əslində, bu qanun layihəsi və onun tələbləri ölkədə tütün məmulatlarının idxalını stimullaşdıracaq. Digər tərəfdən, tütün məmulatlarının istehsalında rəqabət imkanları xeyli dərəcədə məhdudlaşacaqdır. Qanun layihəsi qüvvəyə minəndən sonra biz bunun konkret nəticələrini görəcəyik. Mən düşünürəm ki, bu qanun layihəsi kifayət qədər mütərəqqi deyil.

İkinci, "Qida təhlükəsizliyi haqqında" Qanunda edilən dəyişiklik fərqli bir yanaşma ilə göz önündədir. Burada başlıca məqsəd alkoqollu içkilərin istehsalının standartlaşması ilə bağlıdır. Bəlli olduğu kimi bu gün Azərbaycanda araq istehsalında kifayət qədər standartlardan kənar istehsal mövcuddur. Hətta məlumatlara görə bir sıra şadlıq evlərinin zirzəmilərində ən müxtəlif markalar adı altında saxta araqlar istehsal olunur. Mən ümidvaram ki, "Qida təhlükəsizliyi haqqında" Qanunda edilən dəyişikliklər bu cür halların aradan qaldırılmasına gətirib çıxaracaqdır və araq istehsalında Azərbaycan qanunları çərçivəsində qayda-qanunun yaradılmasına imkan verəcəkdir. Bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, söz almaq istəyirsiniz, buyurun.

**T.Mirkişli**. Çox sağ olun. Xanım sədr, bir məsələ ilə bağlı Sizin və həmkarlarımın da diqqətini cəlb etmək istəyərdim. Bu gün biz "Tütün və tütün məmulatı haqqında" Qanundan danışırıq. Bu, əhalinin təhlükəsizliyi və qida sağlamlığı qarşısında duran əsas məsələlərdən biridir. Amma siqaret çəkməyin bir üsulu var ki, bu, dünyanın

əksər ölkələrində getdikcə qadağan olunur. Amma bu, Azərbaycanda da geniş yayılmış bir siqaret çəkmə formasıdır. Buxarlanma yolu ilə birdəfəlik elektron siqaretlərdir. Buna ingiliscə "Vaping" deyirlər və məndə olan məlumata, daha doğrusu, araşdırmama görə hazırda Azərbaycanda gənclər arasında geniş yayılan, xüsusən də bir dəb və yaxud moda halını alan, amma gələcəkdə çox ciddi şəkildə sağlamlığa zərər verə biləcək bir siqaret çəkmə növüdür. Mən təklif edərdim, əgər Siz də icazə verirsinizsə, biz Aqrar siyasət komitə ilə bir yerdə kiçik bir araşdırma apararıq. Çünki bu, dünyanın əksər ölkələrində qadağandır. Amma Azərbaycanda bu, qadağan deyil. İl ərzində təxminən 3 milyona yaxın belə birdəfəlik elektron siqaret Azərbaycana idxal olunur və mən düşünürəm ki, elə iqtisadi cəhətdən də bu zərər verməzsə və yaxud digər məsələlər önə çıxmazsa, biz bununla bağlı təşəbbüslə çıxış edə bilərik. Çox sağ olun, Sizə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun, Tahir müəllim.

**T.Rzayev**. Hörmətli sədr, bir məsələyə aydınlıq gətirmək istəyirəm. Tütün məmulatları, siqaret dünyada ən bahalı məhsul sayılır. Bizdə də bu qanunda təklif edilmiş dəyişikliklər bilavasitə ixracı nəzərdə tutur ki, biz istehsal elədiyimiz tütün məmulatlarını, eləcə də siqareti xarici ölkələrə daha çox sata bilək. Bu, daxili bazar üçün nəzərdə tutulmayıb.

Sonra burada yoldaşlar müəyyən təkliflərlə çıxış elədilər, onların bəziləri bu qanunda təklif edilmiş dəyişikliklərin predmetinə uyğun deyil. Ancaq bir məsələ, bu idxal şərtlərindən biri kimi, idxalçının ən azı bir il müddətinə tütün məmulatlarının istehsalı sahəsində fəaliyyət göstərməsi məsələsidir. Sözsüz ki, bu, çox vacibdir. Çünki

hər bir kəsə xaricdən siqaret idxal etmək hüququ verilməməlidir. Çünki onda bazarda rəqabət ola bilməz. Yerli məhsullar bilavasitə satıla bilməz. Digər halda, hər bir kəs bu işlə məşğul ola bilər, bu da, sözsüz ki, müəyyən uyğunsuzluğa gətirib çıxara bilər. Bax, bu müddətin qoyulması bununla əlaqədardır. Heç olmasa, bu sahədə müəyyən fəaliyyəti olan insan olsun ki, müəyyən qaydalara əməl eləsin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən görürəm, Qüdrət müəllimin sualı, ya da təklifi var. Buyurun.

**Q.Həsənquliyev**. Hörmətli sədr, bax, mən 14-cü maddəni olduğu kimi oxuyuram. "Tütünün və tütün məmulatının idxalı və ixracı". 14.2-1.1-ci maddə: "Azərbaycan Respublikasının ərazisində azı 1 (bir) il olmaqla tütün məmulatının istehsalı fəaliyyətinin həyata keçirilməsi". Hörmətli Tahir müəllim, bu o deməkdir ki, yəni sən ölkəyə tütün gətirmək istəyirsənsə, özün Azərbaycanda tutaq, bir il tütün istehsal eləməlisən. Niyə tütün istehsal eləyən adamın özünə bunun ticarəti ilə məşğul olmağa icazə veririk. O, onsuz da özü daxildə siqaret istehsal edir və satır. Yəni xaricdən yalnız onun siqaret gətirib Azərbaycanda satmasına icazə veririk. Yəni bu, gözgörəsi inhisarçılığın yaradılmasıdır, burada mübahisəli nə var ki? Ona görə də sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən təklif eləyirəm ki, bu sualları elə işçi qaydada fasilədə də müzakirə edə bilərsiniz. Hörmətli həmkarlar, biz isə qanun layihələrinin bir-bir səsvermə proseduruna keçək. Mən xahiş edirəm, indi isə 8-ci məsələyə, yəni "Tütün və tütün məmulatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 9-cu məsələyə, "Qida təhlükəsizliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 10-cu məsələyə – Vergi və Gömrük məcəllələrində və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. 11-ci məsələdir. "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Mahir Abbaszadəyə söz vermək istəyirəm. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Layihə gömrük orqanlarında xidmətin keyfiyyətinin yüksəldilməsi, gömrük orqanı əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, onların yeni qulluq yerinə keçməsi və bununla bağlı kompensasiyaların ödənilməsi, habelə qulluqkeçmə yerində yaşayış yeri olmayan əməkdaşlarına mənzil kirayəsi üçün pul kompensasiyalarının verilməsini özündə ehtiva edir.

Təqdim olunan sənədə əsasən gömrük orqanlarının vəzifəli şəxslərinin yeni qulluq yerinə keçmə, habelə əmlakın daşınması üçün xərclərinin və birdəfəlik kompensasiyaların ödənilməsi nəzərdə tutulur. Bununla yanaşı, gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar, yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyası ödəniləcəkdir.

Bu xərclərin və kompensasiyaların ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəkdir. Qeyd etmək lazımdır ki, analoji vəziyyət dövlət qulluğunun digər növlərində, xüsusi növlərində

xidmət keçməyə aid qanunvericilik aktlarında tətbiq edilmişdir. Onu da qeyd etmək lazımdır ki, bu, praktikada uğurla həyata keçirilməkdədir.

Hörmətli xanım sədr, məsələ komitədə müzakirə edilmiş, komitəmizin rəyi müsbətdir. Hörmətli millət vəkillərindən qanun layihəsinin dəstəklənməsini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Mahir müəllim. Çıxışa yazılan yoxdur və mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 3-4 dəqiqədən sonra...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Biz növbəti məsələlərə keçirik. Qeyd edim ki, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 12-ci məsələ, "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 13-cü məsələ isə "Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələridir. Biz əvvəlcə

qanun layihələrinin təqdimatlarını dinləyək. sonra isə digər prosedurlara keçək. Qeyd edim ki, hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. İndi isə mən komitənin üzvü hörmətli Nizami müəllim Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim etmişdir. Nəzərinizə çatdırmaq istərdim ki, dövlət başçısının 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 5-ci bölməsində dövlət qulluğunda institusional islahatlar aparılması məqsədi ilə dövlət qulluğu və onun xüsusi növləri, dövlət orqanlarının kateqoriya və iyerarxiyası, struktur bölmələrinin növləri və yaradılması qaydası, dövlət qulluğu vəzifələrinin, növləri, təsnifatları, vəzifə adları ilə bağlı mütərəqqi sistemin qurulması üçün kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Hazırda müzakirənizə təqdim edilən qanun layihəsi bu istiqamətdə atılan mühüm addımdır.

Layihəyə əsasən həm texniki, həm də substansional məsələlərin həlli nəzərdə tutulur. İlk növbədə mövcud qanunun 8-ci maddəsi ilə tənzimlənən dövlət orqanlarının statusu, iyerarxiyası və yurisdiksiyası nəzərə alınmaqla, müvafiq kateqoriyalar üzrə təsnifatda dəyişiklik olunaraq, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində daimi nümayəndəliyi ikinci kateqoriya dövlət orqanları sırasına daxil edilir. "Normativ hüquqi aktlar haqqında" Kons-

titusiya Qanununun tələblərinə uyğun olaraq və formalaşmış qanunvericilik texnikası baxımından inzibati və yardımçı vəzifələrin təsnifatında dəyişikliklər olunur və bunlar, ümumiyyətlə, qanunun mahiyyətinə və həcminə görə ən mühüm müddəaları əhatə edən 11-ci maddədə edilir. Bu dəyişikliklər dövlət idarəetməsi sistemində hazırkı dövrün tələblərinə uyğun olaraq, formalaşmış mövcud təsnifatların yerini dəqiq müəyyənləşdirir. Məsələn, inzibati vəzifələrin ali təsnifatında dəyişiklik olunaraq, dövlət başçısının fəaliyyətini təmin edən orqanların rəhbərləri əlavə edilir. İnzibati vəzifələrin birinci təsnifatına dövlət başçısının fəaliyyətini təmin edən orqan rəhbərlərinin müavinləri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmə rəhbərinin müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini əlavə edilir.

Təqdim edilən dəyişikliklər, ümumiyyətlə, dövlət qulluğunda dövlət başçısının rəhbərliyi altında aparılan uzunmüddətli islahatların davamıdır. Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edəcəyəm.

Gündəliyin 3-cü məsələsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş, "Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsini nəzərdə tutur. Diqqətinizə çatdırmaq istərdim ki, "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"da dövlət qulluğunun inkişafı istiqa-

mətləri sırasında Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin gücləndirilməsi və strategiyanın icrası üzrə fəaliyyət planının dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi bölməsində şuranın dövlət qulluğu sahəsinin inkişafında daha aktiv rol oynaması məsələsi xüsusi olaraq vurğulanmışdır. Bu baxımdan müzakirəyə təqdim edilən qanun layihəsi şuranın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində ciddi əhəmiyyət daşıyır.

Təqdim edilən dəyişikliklərə əsasən nəzərdə tutulur ki, şuranın fəaliyyət istiqaməti təkcə vahid dövlət kadr siyasətinin formalaşması deyil, həmçinin bu orqanın qeyd edilən siyasətinin həyata keçirilməsini də əhatə edəcək. Ayrıca olaraq, yeni fəaliyyət istiqaməti kimi, dövlət qulluğu sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsi nəzərdə tutulur. Yeni müddəalar sırasında, həmçinin dövlət qulluqçuları üçün hazırlanmış təlim strategiyasına razılıq verilməsi, dövlət orqanlarının dövlət qulluğu ilə bağlı qanunsuz aktlarının ləğv edilməsi, dövlət qulluqçularının reyestrinin aparılmasına nəzarət olunması əksini tapmışdır.

Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Siz 3-cü məsələ dediniz, 13-cü məsələdir. Stenoqramda düz getsin deyə.

Aydın müəllim, Sizin sualınız var, deyəsən. Buyurun. Aydın Mirzəzadə.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, Sahibə xanım. 11.1.1.4-cü maddədə yazılır. “Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatının rəhbəri”. Bu hansı vəzifədir, mənim üçün aydın olmadı.

**Sədrlik edən.** Sağ olun. İndi sualınıza cavab olar. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev.** Çox təşəkkür edirəm, hörmətli Sahibə xanım. Mən bu məsələyə konseptual yanaşmanın tərəfdarıyam. Hər 2-3 aydan bir "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilir. Bu qanunda 150-dən çox dəyişiklik edilib və hər zaman demişik ki, dəyişikliklər labüddür, zəruridir və sair. Çıxış yolu kimi Azərbaycan Respublikasının dövlət qulluğu məcəlləsinin qəbul olunmasıdır. Bu, Prezident cənab İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 2023–2025-ci illərdə icrası üzrə fəaliyyət planında öz əksini tapıb. Məcəllə hazırdır, lakin onun qəbul olunması yubadılır. Hətta beynəlxalq təşkilatlar da bu sənədə müsbət rəy veriblər.

Məcəllənin qəbul olunması müəyyən sabitlik yaradacaq. Məcəllədə hər şey sistemləşdirilir, qeyri-müəyyənliklər aradan qaldırılır. Tez-tez edilən dəyişikliklər inam və etimadı azaldır. Qeyd etdiyim kimi, dəyişikliklərin sayı artıq 150-ni ötüb və sosial liftin ləng işləməsinə gətirib çıxarır. Dövlət qulluqçuları bilmirlər ki, sabah daha hansı dəyişikliklər olacaq. Hər dəyişikliklərdə yeni öhdəliklər ortaya çıxır və bu da bəzən peşəkarların uzaqlaşdırılmasına gətirib çıxarır.

Mən məcəllənin layihəsi ilə yaxından tanışam. Layihədə dövlət qulluğu münasibətlərini tənzimləyən bir çox yeni müddəalar öz əksini tapıb. Vahid dövlət qulluğu sistemi, dövlət qulluğunun prinsipləri, ixtisas dərəcələrinin verilməsi, dövlət qulluğuna qəbul, səriştə sisteminin tətbiqi, dövlət qulluğu vəzifələrinin tutulmasının ümumi şərtləri, xidməti fəaliyyətin qiymətləndirilməsi və sair.

Mən hörmətli Nizami müəllimdən məcəllənin taleyini soruşmaq istəyirəm. Bu sənədin qəbul olunma ehtimalı varmı? Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Mən dəyişikliyə səs verəcəyəm. Komitə iclasında bir məsələni qaldırmışdım. İndi də istəyirəm, plenar iclasda bu məsələni gündəmə gətirim. "Dövlət qulluğu haqqında" Qanunun 2.2-ci maddəsində qeyd olunur, qanunda, bu qanunda "başqa hal nəzərdə tutulmayıbsa" və sadalayır ki, kimlərə "Dövlət qulluğu haqqında" Qanun şamil olunmur. Amma təsnifatda həmin şəxslər keçir. Yəni bu, qanunda nəzərdə tutulub. Mən burada elə bir ciddi problem görmürəm. Amma 10.4-cü maddədə qeyd olunur ki, "Siyasi vəzifə tutan şəxslərin hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur". Amma qanunvericilikdə bu siyasi vəzifə tutan şəxslər kimdir, onların dairəsi müəyyən olunur. İndi biz hüquq düşüncəsi baxımından nəticə çıxara bilərik ki, o siyasi vəzifə tutan şəxslər kimlərdir? O qanun kimlərə şamil olunmursa, onlar elə siyasi vəzifə tutan şəxslərdir. Amma axı, bir çox köməkçi vəzifələri, başqa vəzifələr var ki, onlar da siyasi vəzifələr sayılır. Məsələn, müşavirlərdir, köməkçilərdir. Yəni tutaq ki, hər siyasi hakimiyyət dəyişəndə yeni gələn komanda o siyasi vəzifə tutan şəxsləri, yəni bu qanuna istinad etmədən dəyişə bilər. Yəni öz komandasını hakimiyyətə gətirə bilərlər. Ona görə də, hörmətli sədr, düşünürəm ki, bu məsələni biz gərək müvafiq icra hakimiyyəti orqanı ilə də müzakirə edib həll edək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Nizami müəllim, Sizin sözünüz var? Buyurun.

**N.Səfərov**. Çox sağ olun, hörmətli xanım sədr. İlk növbədə deputat həmkarlarıma qaldırdıqları məsələlərə görə minnətdarlığımı bildirirəm. Hörmətli deputat Aydın Mirzəzadənin sualı ilə bağlı. Hörmətli Aydın müəllim, Sizin toxunduğunuz müddəada “Azərbaycan dövlətinin başçısının icra səlahiyyətini həyata keçirən orqanın Aparatının rəhbəri” deyildikdə, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri nəzərdə tutulur.

Hörmətli Etibar Əliyev burada bəzi məsələləri qaldırdı. Xüsusi ilə də bu dövlət qulluğu məcəlləsi ilə bağlı. Hörmətli deputatların nəzərinə çatdırmaq istəyirəm ki, bu məsələ qeyd etdiyim 2019–2025-ci illərə dair dövlət qulluğunun inkişafı strategiyasında və onun 2023–2025-ci illərdə icrası üzrə fəaliyyət planında öz əksini tapıb. Tədbirlər planının 6.1-ci maddəsində Azərbaycan Respublikasının dövlət qulluğu məcəlləsinin qəbul edilməsi nəzərdə tutulur. Burada məsul qurumlar kimi Dövlət İmtahan Mərkəzi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur. Hazırda bu istiqamətdə lazımi işlər gedir, layihə hazırlanıb və müvafiq dövlət qurumları ilə razılaşdırılır. Bu məsələ, həmçinin Dövlət Qulluğunu İdarəetmə Şurasında da müzakirə edilib. Mən ümidvaram ki, yaxın müddətdə bu sənəd təqdim ediləcək və burada qaldırılan bir çox məsələlər həmin məcəllədə öz əksini tapacaq.

Qüdrət müəllimin sualı ilə bağlı. Həqiqətən də, bu, müzakirə olunacaq məsələdir və biz bunu qanunvericilik subyekti, onun nümayəndələri ilə müzakirə edəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz qanun layihələrini səsə qoymalıyıq. Mən onları bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 12-ci məsələyə,

yəni “Dövlət qulluğu haqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 13-cü məsələyə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

14-cü məsələyə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində

idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Vüqar İskəndərova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.İskəndərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, hörmətli deputatlar, media mənsubları. Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim edilən qanun layihəsi kifayət qədər aktualdır. Layihədə əsas təkliflər dekstrometorfan və buprenorfin maddəsinin yerdəyişməsi ilə bağlı olan təkliflərdir. Bildirmək istəyirəm ki, dekstrometorfanın ölkə ərazisində dövriyyəsi məhdudlaşdırlan psixotrop maddələrin siyahısından çıxarılaraq dövriyyəsinə nəzarət edilən psixotrop maddənin siyahısına daxil edilməsi, onun reseptsiz buraxılan öskürəkkəsici, soyuqdəymə əleyhinə vasitə kimi istifadə edilməsi ilə bağlıdır. Bir sıra xarici ölkələrdə, Türkiyədə, ABŞ-də bu preparat şərbət, tablet, sprey şəklində öskürək əleyhinə vasitə kimi reseptsiz satılır. Bu gün müzakirəmizə təqdim edilən təklif qəbul edilərsə, bu dərman maddəsi nəzarətdə saxlanılmayacaq, bu da həm həmin dərman preparatlarının sahibkarlar tərəfindən ölkəyə gətirilməsindəki qadağanın aradan qaldırılmasına səbəb olacaq, həm də əhalinin qeyd edilən dərman preparatlarına əlçatanlığı təmin ediləcəkdir.

İkinci dəyişiklik buprenorfin maddəsi ilə əlaqədardır. Buprenorfin siyahıda iki yerdə, ölkə ərazisində dövriyyəsi məhdudlaşdırılan və ölkədə dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin siyahısında müəyyən edilmişdir.

Dəyişikliyə əsasən buprenorfin maddəsinin tibbi formokoloji xüsusiyyətləri nəzərə alınaraq, ölkəmizdə dövriyyəsi məhdudlaşdırılan maddələrin siyahısından çıxarılaraq yalnız dövriyyəsi nəzarət edilən psixotrop maddələrin siyahısında qalması təklif edilir. Layihədə "buprenorfin" sözünün "buprenorfin" sözü ilə əvəz edilməsi isə yalnız texniki xarakter daşıyır. Bu layihə komitəmizdə müzakirə olunub və həmkarlarımızdan layihəni dəstəkləmələri xahiş olunur. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Sağ olun, müzakirəyə keçirik. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Tibbi nöqteyi-nəzərdən vacib olan bir qanun layihəsi təqdim olunub. Hesab edirəm ki, səs verib qəbul edəcəyik, dəstəkləyəcəyik.

Digər bir məsələ bu gün, doğrudan da, bütün cəmiyyətimizi və hər bir kəsi narahat edən çox ciddi bir məsələdir. Bu məsələ ondan ibarətdir ki, gün ərzində mətbuata biz nəzər salanda görürük, hər gün 5 nəfərdən 50 nəfərə qədər insan narkotik ticarəti, narkotik daşınması ilə bağlı məsuliyyətə cəlb olunur. Təkcə narkotik qəbul etməsi ilə deyil, onun ticarəti ilə bağlı. İndi narkotik qəbul edənlərin sayı nə qədərə gəlib çıxır. Hesab edirəm ki, biz qanunvericiliyimizin digər hissəsində istər İnzibati Xətalar Məcəlləsində, istərsə də Cinayət Məcəlləsində bu məsələni ciddi şəkildə kəskinləşdirməliyik. Artıq müxtəlif narkotik maddələr orta məktəblərə daxil olur. İndi biz dərman preparatlarını siyahıların birindən çıxarıb başqasına daxil edirik. Bu gün Azərbaycanda narkotikdən müalicə olunmaq üçün kifayət qədər dispanser yoxdur. Yəni artıq bunun vaxtı çatıb ki, digər xəstəxanalarla yanaşı, bu cür dispanserlər də tikilib istifadəyə verilsin və

orada həmin insanların sağalması ilə bağlı bu məsələlər öz həllini tapmalıdır. Bir dispanser var idi, bilirsiniz ki, onun da rəhbərliyi bu yaxınlarda korrupsiya ilə əlaqədar məsuliyyətə cəlb olundu. Yəni orada insanları sağaltmaq əvəzinə, korrupsiya ilə məşğul olurdular və dövlət də məsuliyyətə cəlb etdi.

Bu gün narkotiklərin sərhəddən keçirilməsində, daşınmasında tez-tez işlənən bir ifadə var ki, "İran vətəndaşından almışam". Bəs bu İran vətəndaşı kimdir, bunları kimdir gətirən, kimdir bu ölkəni, bu insanları zəhərləyən, kimdir o insanların övladlarını zəhərləyən? Özü də bu hamıya, hər bir şəxsə aiddir, heç kəs bundan sığortalanmayıb. Heç kəs də deyə bilməz ki, mən bundan sığortalanmışam. Bu problem hər bir şəxsin qapısını döyə bilər. Ona görə də problem ciddi problemdir və mən hesab edirəm ki, biz də birlikdə qanunvericiliyimizdə əlimizdən nə gəlirsə onu etməliyik ki, Azərbaycanın milli mentalitetinə zidd olan və Azərbaycan uşaqlarının gələcəyini məhv edən bu sistemə son qoyaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz qanun layihəsi, əlbəttə, zəruridir, lazımdır. Bu, birbaşa bizim genefondumuza, gələcəyimizə yönələn və sağlamlığımızı, düşüncəmizi özündə ehtiva edən qanunlar sırasındadır. Yəni bir daha qeyd edək, bu, birbaşa bizim sağlamlığımız ilə bağlıdır. Digər tərəfdən isə, əlbəttə, bu kimi hallarla mübarizə təkcə hüquq mühafizə orqanlarının, yaxud müvafiq orqanların birbaşa vəzifəsi olaraq onların məsuliyyətidir. Ancaq bütövlükdə isə, bu hallarla mübarizə, mənə elə gəlir ki, bütün cəmiyyətin hər bir üzvünün vəzifəsidir. Hər birimiz gördüyümüz, bildiyimiz bu kimi hallara qarşı

kəskin şəkildə münasibətimizi bildirməliyik.

Mənim çıxış etməyimin və söz almağımın başqa bir səbəbi də var. Əlbəttə, qanun layihəsi ilə bağlı fikirlər səsləndi. Biz qanunları müzakirə edərkən və bu qanunlar qəbul olunarkən, xüsusi ilə plenar iclasımızda sosial sferanı, başqa istiqamətləri əhatə edən qanunların müzakirəsində digər ölkələrin adını çəkirik. Mən belə düşünürəm ki, hər bir ölkənin özünəməxsusluğu vardır. Mən hər bir fikrə hörmətlə yanaşıram, bu fikirlərdə nə isə bir mənfi hal görmürəm. Sadəcə olaraq, ümumi fikrimi ifadə etmək istəyirəm ki, bu, Amerikada hansı şəkildədir, Amerikanın özü bilər. Biz həmişə özümüzün, öz cəmiyyətimizin, öz ölkəmizin, öz vətəndaşlarımızın timsalında biz bunları əsaslandırmalıyıq, öz cəmiyyətimiz üçün bunun təsirləri nədən ibarətdir, hansı reallıqda yaranır, bunun təsirləri necə ola bilər?

Yenə qeyd edirəm, hər hansı bir sosial qanun müzakirə olunur və Amerikada belədir, Avropada belədir. Halbuki o qanunların hazırlanması, qəbul olunması, tətbiqi tamamilə ayrı-ayrı istiqamətlərdir. Mən hesab edirəm ki, biz həmişə öz cəmiyyətimiz üçün, özümüz üçün qanunlar, ali qanunlar, əsaslandırılmış qanunlar qəbul edirik. Digər müqayisələr isə işçi şəraitdə, müqayisəli şəraitdə ola bilər ki, orada necədir, burada hansı formadadır? Fikirlərim bundan ibarətdir. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

15-ci məsələyə keçirik. Bu Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Bildiyiniz kimi, möhtərəm Prezidentin sərəncamlarına müvafiq olaraq, açıq hökumətin təşviqinə dair milli fəaliyyət planlarına əsasən ölkəmizdə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədi ilə dövlət xidmətlərinin müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə elektronlaşması istiqamətində ciddi addımlar atılır. Bu gün təqdim olunan layihə də ilk növbədə qeyd olunan istiqamətdə islahatların davamıdır və dövlət orqanlarının informasiya sistemlərinin inteqrasiyasının sürətləndirilməsini nəzərdə tutur.

Məlumdur ki, Mülki Prosessual Məcəllənin hazırkı tələblərinə əsasən uşağın övladlığa götürülməsi barədə məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətinə, valideynlik hüquqlarının məhdudlaşdırılması haqqında qətnamə isə

qanuni qüvvəyə mindikdən sonra 3 gündən gec olmayaraq hakim tərəfindən müvafiq orqan, yəni Ədliyyə Nazirliyinin informasiya sisteminə ötürülür. Hazırda müzakirəmizdə olan layihə isə qətnamədən çıxarışın artıq 3 günə deyil, dərhal ötürülməsini təklif edir. Bu isə müvafiq qətnamələrin icrasını tezləşdirəcək, eyni zamanda, dövlət qurumları arasında informasiya mübadiləsinin operativliyini təmin edərək, həm dövlət xidmətlərinin keyfiyyətini yüksəldəcək, həm də şəffaflığı artıracaq.

Ümumiyyətlə, aydındır ki, rəqəmsal transformasiyanın uğurla davam etdirilməsi bir sıra hüquq münasibətlərinə, bütövlükdə, yeni baxış tələb edir. Çünki rəqəmsal idarəetmənin tətbiqi əvvəllər imperativ tələb kimi müəyyən edilmiş bir sıra normaları lüzumsuz edir və həmin normaların qanunvericilikdə qalması artıq bürokratik əngələ çevrilir.

Məsələn, indi iclasdan öncə bir daha dəqiqləşdirmə apardıq. Səhiyyə və Ədliyyə nazirliklərinin informasiya sistemlərinin müəyyən istiqamətləri artıq, demək olar ki, tam inteqrasiya olunub. Artıq aidiyyəti orqan bütün sənədləri özü sistemdə görür. İndi cari layihənin həll etdiyi məsələlərdən biri məhz rəqəmsal transformasiyanın yaratdığı o imkanın qanunvericilikdə təsbit edilməsidir ki, əlavə xüsusi arayışlar, sənədlər kağız daşıyıcıda tələb olunmasın.

Ən nəhayət, məlumdur ki, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 25.2-ci maddəsinə əsasən normativ hüquqi aktın normalarında həddindən artıq ümumiləşdirilmiş ifadələrə yol verilməməlidir. Təqdim etdiyimiz layihədə də qanunvericilikdə “qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış” məzmunlu ümumiləşmiş məfhum, “məhkəmənin qətnaməsi qanuni

qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış" ifadəsi ilə əvəz edilməklə qanunvericilikdəki mövcud çatışmazlıq aradan qaldırılır. Qeyd etdiklərimiz Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin layihə üzrə məruzə dairəsinə aid olan məsələlər idi və gördüyünüz kimi, kifayət qədər mütərəqqi məsələlərdir. Bu mənada həmkarlarımızdan dəyişiklikləri dəstəkləməyi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu qanun layihəsinə daha iki komitədə baxılıb. Ailə, qadın və uşaq məsələləri komitəsində və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Mən indi sözü Jalə xanəm Əliyevaya verirəm, Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavininə. Jalə xanım, buyurun, komitənin rəyini bildirin.

**J.Əliyeva,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə dair təklif olunan dəyişikliklər məhkəmə qətnamələrinin icrasının tezləşdirilməsi və dövlət qurumları arasında informasiya mübadiləsinin operativliyinin təmin edilməsinə xidmət edir. Digər dəyişikliklər uyğunlaşdırma və dəqiqləşdirmə məqsədi daşıyır. Artıq məndən əvvəl hörmətli həmkarımız təfsilatlı məlumat verdi. Mən də qeyd edim ki, qanun layihəsi Ailə, qadın və uşaq məsələləri komitəsində müzakirə edilmişdir. Əlavə rəy və təkliflər olmamışdır. Layihə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Diqqətinizə

görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, komitənin rəyini özünüz bildirəcəksiniz, Sizin komitədə də baxılıb. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, bizim komitədə "Dövlət rüsumu haqqında" Qanunda edilən dəyişiklik müzakirə edilərək qəbul edilmişdir. Belə ki, edilən dəyişikliyə görə dövlət rüsumunun tutulduğu halların siyahısına vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə yanaşı, habelə şəhadətnamələrin verilməsi də əlavə olunmuşdur. Ona görə bütün maddələrdə "şəhadətnamənin verilməsi" sözü mətn üzrə əlavə olunmuşdur.

Eyni zamanda, yeni bir məsələ də "Dövlət rüsumu haqqında" Qanunda əlavə olunmuşdur. Belə ki, Azərbaycan Respublikasının xaricdə yerləşən konsulluqlarında nikahın məhkəmə qərarı əsasında pozulmasının qeydiyyata alınması ilə bağlı 15 ABŞ dolları həcmində yeni rüsum da müəyyən olunmuşdur. Bu da Azərbaycanın xaricdə yerləşən konsulluqlarında belə bir aktın həyata keçirilməsinə imkan verəcəkdir. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə keçirik. 2 nəfər yazılıb. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən təqdim edilmiş hər 3 qanunda dəyişiklərə müsbət yanaşıram. Düşünürəm ki, təqdim edilmiş qanun layihəsi, həm Mülki Prosessual Məcəllədə, həm Ailə Məcəlləsində, həm də "Dövlət rüsumu haqqında" Qanunda dəyişikliklər mütərəqqi mahiyyət daşıyır. Bu qanuna səs vermək vacibdir.

Mən dəfələrcə Ailə Məcəlləsi, ailə münasibətləri ilə bağlı yeri düşdükcə bir vacib məsələni qaldırmışam. Bu gün onu bir daha təklif etmək istəyirəm. Ailə münasi-

bətlərində bu gün ən aktual və vacib məsələlərdən biri vətəndaş nikahı ilə bağlı mövcud reallığın qanunla tənzimlənməsidir. Vətəndaş nikahı Avropadan Azərbaycana keçib. Aparılan araşdırmaların nəticəsinə görə, Avropada bu, demək olar ki, getdikcə azalıb, lakin Azərbaycanda isə getdikcə çoxalır. Son 10 ildə statistika göstərir ki, vətəndaş nikahından doğulan uşaqların sayı şəhərlərdə 3 dəfə, kənd və rayonlarda 6 dəfəyə qədər artıbdır.

Sadəcə olaraq, bunun özü, təbii ki, demokratik baxımdan müsbət haldır, yəni insanlar bir-biri ilə razılaşırlar, könüllü şəkildə qeyri-qanuni nikaha girirlər və dünyaya uşaq gətirirlər. Amma sonradan bu və ya digər səbəbdən biz dəfələrcə bizə olan müraciətlərdə şahidi olmuşuq ki, onların valideynlərindən biri, yəni kişi vətəndaş nikahına son qoyur və dünyaya gətirmiş olduqları həmin uşaqla vaxtı ilə sevgi nəğmələri oxuduğu qadını tək-tənha qoyaraq başqa bir macəranın arxasınca gedir. Onların arasında nikah olmadığına görə həm qadın, həm də dünyaya gələn uşaq kifayət qədər əziyyət çəkir. Yəni onlar hüquqi baxımdan müdafiə olunmurlar. Çünki Ailə Məcəlləsində bu yoxdur.

Digər çətinliklər də var, təbii ki, mən vaxt alıb bunun üzərində dayanmaq istəmirəm. Ona görə də, hörmətli xanım sədr, çox xahiş edirəm ki, bu məsələ hansısa bir səviyyədə diqqətdə saxlanılsın. Vətəndaş nikahı ilə bağlı, təbii, maariflənmə işi aparılmalıdır, izah işi genişləndirilməlidir, bu öz yerində, lakin bir sıra məsələlər maariflənmə ilə aparılmış olan izahedici fəaliyyətlə tənzimlənmir. Bunun üçün qanunvericilikdə müvafiq baza yaradılmalıdır ki, bu və buna bənzər hallar qanunvericiliklə tənzimlənsin, həm də vətəndaş nikahından sonradan əziyyət çəkən qadın və uşaq Azərbaycan qanunları çərçivəsində

müdafiə olunsunlar. Çox sağ olun.

**Sədrlik edən.** Vətəndaş nikahı qanunsuzdur. Bunu da hamı bilir. Ona görə nə kişi, nə də qadın vətəndaş nikahına girməsinlər. Budur. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Çox sağ olun, hörmətli sədr. Mən sadəcə olaraq, "Dövlət rüsumu haqqında" Qanunla bağlı fikirlərimi bildirmək istəyirəm. Komitənin iclasında da bildirmişdim.

Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün dövlət rüsumunun dərəcələri dollarla müəyyənləşir. Mən buna etiraz etmişdim. Ona görə ki, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsində qeyd olunur, Azərbaycanda pul vahidi manatdır və digər valyutalarla ödənişlərin aparılması qadağandır.

Bizdə 1961-ci il "Diplomatik əlaqələr haqqında" Vyana Konvensiyasına görə də eksteritoriallıq prinsipi var, yəni nümayəndəlik akkreditiv dövlətin birbaşa ərazisi olmasa da, amma ərazisi sayılır, toxunulmazlığı var və akkreditiv dövlətin qanunvericiliyi həmin nümayəndəliyin ərazisində tətbiq olunur. Ona görə bu, məntiq baxımından da doğru deyil. Məsələn, Avropa Birliyindəki bizim səfirliyimiz əgər orada pul vahidi avrodursa, niyə dollarla bu ödənişləri qəbul etsin, yaxud Britaniyada, yaxud da qardaş Türkiyəni, başqa bir ölkəni götürək. Ona görə də Azərbaycanla bütün rüsumların həcmi Azərbaycan manatı ilə müəyyən olunmalıdır və hər ölkədə bu öz valyutası ilə alınmalıdır. Amma konvertasiya olunmalıdır, həmin manat neçə lira, neçə paund, yaxud neçə avro edir.

Diqqətinizə görə sağ olun. Düşünürəm, bunu da həll etmək lazımdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov da söz istəyir. Buyurun.

**B.Məhərrəmov.** Sahibə xanım, Qüdrət müəllimin qaldırdığı məsələ ilə bağlı çox qısa münasibət bildirim.

Həqiqətən də, bəli, çox maraqlı bir məsələdir. Konstitusiyamızın 19-cu maddəsinin III hissəsində ifadə olunub ki, "Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır". Amma eyni zamanda, bizim Mülki Məcəllənin 439.1-ci maddəsində qeyd olunur ki, "əgər tərəflərdən biri xarici fiziki və ya hüquqi şəxsdirsə, tərəflər pul öhdəliyini, əgər bu, qanunla qadağan edilməyibsə, xarici valyutada da müəyyənləşdirə bilərlər". Bu, məsələnin bir tərəfi.

İkincisi isə, mən bunu Xarici İşlər Nazirliyi ilə də dəqiqləşdirdim. Oradan da verilən məlumata görə bəzi ölkələrlə Azərbaycan manatının məzənnəsini müəyyənləşdirmək, xüsusi ilə əlaqələrin, belə deyək, olmadığı istiqamətlərdə çətindir. Orada, sadəcə, məsələ ondan ibarətdir ki, dollar ümumi məzənnə olaraq müəyyənləşdirilir. Hər bir ölkənin valyutasında ödənişlər həyata keçirilir, sadəcə, dolların məzənnəsinə müvafiq olaraq. Bu da ödənişi daha asanlaşdırmaq məqsədi daşıyır.

Qüdrət müəllim komitədə də bu məsələni qaldırdı. Amma istənilən halda yenə də məsələ ilə bağlı bir daha müzakirə apararıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| Lehinə | 90 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bir-birinə də mahiyyətcə yaxındır.

16-cı məsələ "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 17-ci məsələ isə Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələridir.

Hörmətli həmkarlar, biz həmişə olduğu kimi, təqdimatları ayrılıqda edəcəyik, müzakirə birgə, səsvermə isə ayrılıqda keçiriləcək. Qeyd edim ki, layihələrə 2 komitədə baxılıb – Hüquq siyasəti və dövlət quruculuğu komitəsində və Əmək və sosial siyasət komitəsində. Bəhruz müəllim, mən Sizdən xahiş edəcəyəm. Siz 16-cı məsələyə dair məlumat verin, 17-ci məsələ barəsində isə komitənin rəyini bildirin. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Məlumdur ki, Azərbaycan ərazisində hüquqi şəxs statusu almaq istəyən qurum, habelə xarici hüquqi şəxs, nümayəndəlik və ya filial dövlət qeydiyyatına alınmalı və dövlət reyestrinə daxil edilməlidir. Bu proseslər artıq mütləq qaydada rəqəmsallaşıb. Lakin sirr deyil ki, elektronlaşma da özlüyündə yeni yanaşmaları artıq zəruri edir. Hazırda diqqətinizə təqdim olunan cari layihə də məhz yeni zərurətlər fonunda elektron qeydiyyat

prosedurunun həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətlərin daha təkmil formada tənzimlənməsini nəzərdə tutur.

Qanun layihəsinə əsasən ilk növbədə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin dövlət qeydiyyatı prosedurları fərqləndirilir. Xarici investisiyalı MMC-lərin elektron qeydiyyatı zamanı təsisçi xarici hüquqi şəxs olduqda onun qeydiyyatını təsdiq edən sənədlərin digər informasiya sistemlərinə ötürülməsinin yeni qaydaları müəyyən olunur. Həmçinin hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınmasından imtinanın qanunvericilik əsaslarına dair yeni hallar müəyyən olunur.

Bildiyiniz kimi, hazırda hüquqi şəxs statusu almaq istəyən qurumun, habelə xarici hüquqi şəxsin, nümayəndəlik və filialın dövlət qeydiyyatına alınmasından və ya dövlət reyestrinə daxil edilməsindən 6 halda imtina edilməsi nəzərdə tutulur. Təkliflə isə obyektivliyi və qəbul edilənliyi şübhə doğurmayan daha 12 hal əlavə edilir.

Məsələn, nümunə olaraq göstərə bilərik. Eyniadlı hüquqi şəxs artıq qeydiyyata alınıbsa, yaxud dövlətin təsis etmədiyi, yaxud da dövlət payı olmayan hüquqi şəxsin təklif edilən adı onun dövlət orqanı ilə bağlı olması təəssüratını yaradırsa, həmin adla müraciət etmiş şəxslərə, təbii ki, imtina verilməlidir. Bu, artıq qanunda rəsmiləşir. Yaxud da təklif olunur ki, hüquqi şəxslərin adında milli qəhrəmanların, şəhidlərin adından icazəsiz istifadə edilməsinə yol verilməsin.

Bundan başqa, dəyişiklik hüquqi şəxsin adından istifadəni qadağan edən simvollara da ümumi qaydalar müəyyən edir. Məsələn, Azərbaycan əlifbasında olan həriflər, nöqtə, vergül, dırnaq, defis və nömrə işarələri istisna

olmaqla, digər simvolların istifadə olunması artıq qadağan olunacaq.

Bundan başqa, təsisçi və ya qanuni təmsilçi əgər onların adı terrorçuluğun maliyyələşməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin siyahısında olarsa, qeydiyyata alınma və ya dövlət reyestrinə daxil edilmə artıq məhdudlaşdırılacaq. Bu isə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunun 2023-cü ilin fevralın 1-də qüvvəyə minən "Hədəfli maliyyə sanksiyaları haqqında" Qanuna uyğunlaşdırılmasına dair qarşıda duran vəzifənin icrası deməkdir.

Əziz həmkarlar, gördüyünüz kimi, cari layihə Azərbaycan ərazisində hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılmasının hüquqi və təşkilati əsaslarını yeni reallıqlara uyğunlaşdırır. Bu mənada çox mühüm layihədir və hər birinizdən çox xahiş edirik ki, bu layihələri dəstəkləyəsiniz. Çox sağ olun.

Digər məsələ isə, hörmətli sədr, elə bu məsələ ilə bağlıdır. Komitəmizin mövqeyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. 17-ci məsələyə, Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirik, məlumat verin.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, Sizin qeyd etdiyiniz kimi, bu 2 məsələ – həm 16-cı, həm də 17-ci məsələlər bir-biri ilə bağlı məsələlərdir. 17-ci məsələdə nəzərdə tutulan dəyişikliklər məhz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda təklif edilən dəyişikliklərin mabədidir və ona uyğunlaşdırma xarakteri daşıyır.

17-ci məsələdə 2 məcəllədə dəyişiklik təklif olunur. Əmək Məcəlləsində təklif olunan dəyişikliklərin mahiyyəti yerli investisiyaların məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün yaradılan şəraitin, eyni zamanda, xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətə də şamil olunmasına hədəflənmişdir. Bu dəyişikliklər ölkədə "Elektron hökumət" çərçivəsində görülən işlərin miqyasının daha da genişləndirilməsinə və əmək münasibətlərinin elektron qaydada qurulmasına xidmət edəcəkdir.

Digəri isə Mülki Məcəllədə təklif olunan dəyişikliklərdir. Bu da hörmətli Bəhruz müəllimin söylədiyi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda edilən dəyişikliklərlə həmahəngdir.

Burada Mülki Məcəllənin 47-ci maddəsində dəyişiklik təklif olunur. Həmin maddədə qeyri-hökumət təşkilatlarının nizamnaməsində dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, dövlət nəzarəti və yoxlama funksiyasının nəzərdə tutulmasına yol verilmir. Həmin müddəa digər hüquqi şəxslərə də aid olunur. Yalnız burada bir istisna var ki, dövlətin müvafiq icra hakimiyyəti orqanlarının yaratdığı publik hüquqi şəxslərin nizamnaməsində belə yoxlama funksiyaları nəzərdə tutulubsa...

Hər iki layihə həm əmək münasibətlərinin tənzimlənməsinə, həm də "Elektron hökumət" çərçivəsində görülən işlərin genişlənməsinə daha geniş hüquqi baza yaradılması məqsədi ilə hazırlanmışdır.

Diqqətinizə görə təşəkkür edirəm. Komitədə hər iki məsələ müzakirə olunub. Komitə layihələri Milli Məclisin plenar iclasına tövsiyə etmişdir. Həmkarlarımdan hər iki layihəni dəstəkləmələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyuram. Xahiş edirəm, indi 16-cı məsələdə olan qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 17-ci məsələdə olan qanun layihəsini, yəni Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə növbəti, – əslində, sonuncu məsələmizdir, – 18-ci məsələyə keçirik. Bu məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Layihə haqqında məlumat vermək üçün komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bu ilin noyabr ayında müasir dövlətimizin tarixində beynəlxalq əhəmiyyətli olduqca mühüm hadisə baş verəcək. Bildiyiniz kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, – COP29 adlanır, – cari ilin noyabr ayında Azərbaycanda keçiriləcək. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsi əldə etdiyimiz davamlı uğurlardan növbəti olmaqla, həm də dövlətimizin beynəlxalq aləmdəki çəkisi və müsbət reputasiyasının göstəricisidir. Eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünün və regionun lider dövləti olmasının BMT üzvləri tərəfindən birmənalı qəbul edilməsinin faktiki təcəssümü Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasətinin növbəti təntənəli qələbəsidir.

Noyabrın 11-dən 24-dək Bakıda keçiriləcək konfrans çərçivəsində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80 min nəfərə yaxın nümayəndənin qəbul edilməsi gözlənilir. Bu çərçivədə qeyri-rezidentlərə 2024-cü ilin mart ayının 1-dən 9 ay müddətində aşağıdakı vergi azadolmaları şamil ediləcəkdir:

Malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdiyi gəlirlərin gəlir vergisindən azad olunması.

Qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlərin mənfəət vergisindən azad olunması.

Bağlanmış müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsinin, habelə müvafiq təsdiqedici sənəd əsasında malların idxalının ƏDV-dən azad olunması.

Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən müsbət rəy verilibdir. Həmkarlarımı bu dəyişikliklərə səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Ona görə də mən qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**İlham Məmmədov.** Növbəti tarixi qələbəmiz münasibəti ilə xalqımızı təbrik edir və bu tarixi anları bizə yaşadan müzəffər liderə minnətdarlıq hissini ifadə edirəm.

Məlum olduğu kimi, cari ilin aprel ayının 19-da Azərbaycan–Ermənistan sərhədlərinin delimitasiya üzrə dövlət komissiyalarının 8-ci iclasında tarixi qərar qəbul edilib. Bir güllə belə atılmadan Ermənistan tərəfi 1990-cı illərin əvvəllərindən işğal altında saxladığı Qazax rayonunun anklav olmayan 4 kəndinin Azərbaycana qaytarılmasına razılıq verib. Bəli, xüsusilə qeyd etmək lazımdır ki, bu, möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığımız növbəti tarixi qələbədir. Necə ki, “Dəmir yumruq” əməliyyatı ilə Azərbaycanın tarixi torpaqları düşmən tapdağından təmizləndi, ərazi bütövlüyümüz təmin olundu və Ermənistana böyük tarixi dərs ve bizim parlaq qələbəmiz, Azərbaycanın qüdrətl olmasının əyani sübutu idi.

Əfsuslar olsun ki, Ermənistan bu dərsdən nəticə çıxara bilməmişdi. Doğma Qarabağda separatizmin tör-töküntüləri qalmaqda idi. Möhtərəm Prezident cənab İlham Əliyevin humanist müraciətlərinə baxmayaraq, mənfur düşmən hələ də əzəli yurdumuzda vandallıq nümayiş etdirirdi. 2022-ci ildə, həmçinin 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun erməni separatçılarına qarşı həyata keçirdiyi lokal antiterror əməliyyatı nəticəsində mənfur düşmən darmadağın oldu. Vətən müharibəsində qələbəmiz və uğurlu antiterror əməliyyatlarımız Ermənistana tarixdə verilmiş ən böyük dərs idi. Bütün

uğurlarımızın əsasında möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik siyasəti dayanır. O siyasət ki bizə tarixi Zəfər qazandırdı, bizim bir xalq olaraq güclü və məğlubedilməz olduğumuzu dünyaya nümayiş etdirdi.

Bu gün Qazaxın 4 kəndinin düşməndən geri alınması, xüsusilə heç bir hərbi qarşıdurma olmadan buna nail olmaq, bizim üçün qürurverici hadisədir. Xarici düşmənlərin gözünə ox olub batan zəfərimiz daxildəki düşmənlərin də başına od ələyib. Vaxtı ilə riyakar müxalifətin sifarişlə danışdıqları yalanlar cənab Prezidentin mükəmməl siyasəti ilə alt-üst oldu. Cənab Prezidentin müzəffər olduğunu Azərbaycan xalqı çox yaxşı bilir və qədirbilən xalqımız öz liderinin yanında "Dəmir yumruq" kimi birləşir. "Rusiyanın sülhməramlıları Azərbaycandan heç vaxt çıxmayacaq və onlar bizim ərazilərimizi işğal etməyə gəlib" deyən "güclü siyasətçilər" bu gün dünyanın gözü qarşısında rəzil olublar.

Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan bu gün cənab İlham Əliyevin ali rəhbərliyi ilə xoşbəxt və firavan gələcəyə doğru uğurla addımlayır və hər gün yeni bir tarix yazır.

**Ceyhun Məmmədov.** Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycan xalqının davamlı olaraq bir çox mühüm qələbələrə imza atdığının şahidiyik. Azərbaycan son 300 illik tarixinin ən şanlı və şərəfli günlərini yaşamaqda davam edir. 2020-ci ildə torpaqlarımızı işğaldan azad etdik. 2023-cü ildə suverenliyimizi tam bərpa etdik.

Bir neçə gün bundan öncə Rusiya sülhməramlıları Qarabağı tərk etdilər. Ən önəmli məsələlərdən biri isə 4 kəndin azad olunmasıdır. Bu, müharibə olmadan, dövlət başçısının apardığı uğurlu diplomatik fəaliyyət nəticəsində mümkün oldu. Azərbaycan xalqı qələbəyə imza atdı.

Qeyd etmək lazımdır ki, uzun müddətdir Azərbaycana ciddi təzyiqlər və cəhdlər var idi, Ermənistan da müharibəyə təhrik edilirdi. Azərbaycan uğurlu siyasətlə ona nail oldu ki, heç bir vasitəçi olmadan biz Ermənistanla anlaşdıq və qarşı tərəf 4 kəndimizi qaytarmağa razılaşdı. Ümumiyyətlə, son vaxtlar aparılan ikitərəfli danışıqlar prosesə daha çox töhfə verir, nəinki hansısa vasitəçinin iştirak etdiyi platformalar. Bu da uğurlu diplomatik gedişin nəticəsidir. Bu istiqamətdə danışıqlar öz töhfəsini verir.

Davamlı olaraq Ermənistanı Azərbaycanla şantaj edib, belə bir görüntü yaratmağa çalışdılar ki, Azərbaycan ermənilərə qarşı guya etnik təmizləmə həyata keçirir, Azərbaycan Ermənistana hücum edəcək. Son proseslər onu göstərdi ki, Azərbaycanın belə bir planı yoxdur. Azərbaycanın əsas hədəfi bölgəyə sülhün gəlməsi və bunun üçün addımların atılmasıdır. Son razılaşma Qərbin apardığı siyasətin heç bir təsirə malik olmadığını və nəticə vermədiyini növbəti dəfə açıq-aydın göstərdi. Azərbaycan bütün məqsəd və hədəflərinə mütləq nail olacaq.

## MÜNDƏRİCAT

23 aprel 2024-cü il ........................................................ 3
Edilməmiş çıxışların mətnləri ............................................. 109

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

68-ci cild

23 aprel 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 7,5. Sifariş 59. Tiraj 150.